QOY ƏDALƏT ZƏFƏR ÇALSIN!



“SƏS” qəzeti mənim üçün ən əziz qəzetdir

# SƏS

*Qəzet 1991-ci il yanvarın 11-dən çıxır*

№ 053 (5773) **20 mart** 2019-cu il. “Əlincə” Azərbaycan Xeyriyyə Cəmiyyətinin orqanı. **Qiyməti 40 qəpik**

# Prezident İlham Əliyev Novruz bayramı münasibətilə ümumxalq şənliyində iştirak edib



Səh 2

Əli Həsənov: Bob Woodwardın “Fear: Trump in the White House” kitabında yayılan məlumat yalan və saxtadır



3

“Əli İnsanov əvvəlki səhvinin mənəvi yükünü nəinki dərk edir, hətta onu yenidən etməyə hazırdır”



3

Akademik Nərgiz Paşayeva Oksford Universitetinin Bodli Kitabxanasının yaradıcısının şərəfinə təşkil edilən təntənəli qəbulda iştirak edib



4

Azərbaycan heç bir qüvvənin diktəsi ilə hərəkət etmir, tam müstəqil siyasət həyata keçirir



6

DSX-nin Ermənistanla sərhəddə yeni hərbi hissəsi istifadəyə verilib



8

Yohan Vadeful: “Qarabağ Ermənistan tərəfindən işğal edilmiş Azərbaycan ərazisidir”



9

12

Satqın “azərbaycanlılar” ermənilərlə iş birliyində!



14

Nankor və xəyanətkardan başqa nə isə gözləməyə dəyməzdi!



16

Polis Bekhemi cərimələyəcək



# Prezident İlham Əliyev Novruz bayramı münasibətilə ümumxalq şənliyində iştirak edib

***Martın 19-da Bakıda Azərbaycan xalqının milli bayramı - Novruz münasibətilə ümumxalq şənliyi keçirilib. AZƏRTAC xəbər verir ki, Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev və birinci xanım Mehriban Əliyeva Novruz şənliyində iştirak ediblər.***

Dövlətimizin başçısı və xanımı Bakının Fəvvarələr meydanına gəldilər. Bayram şənliyinin iştirakçıları dövlətimizin başçısını və xanımını hərarətlə qarşıladılar.

Prezident İlham Əliyev sakinlərlə söhbət etdi. Novruz şənliyinin iştirakçıları ilə xatirə şəkilləri çəkdirildi. Sonra Azərbaycan Prezidenti İlham Əliyev və birinci xanım Mehriban Əliyeva burada "Novruz" yarmarkası ilə tanış oldular.

Prezident İlham Əliyev, birinci xanım Mehriban Əliyeva və şənliyin digər iştirakçıları aşıqların ifasını dinlədilər. Daha sonra dövlətimizin başçısı və xanımı İçərişəhərə gələrək burada "Bahar qalası" festivalı ilə tanış oldular.

Bahar qız dövlətimizin başçısına bayram xonçası təqdim etdi.

Ulu Dədə Qorqud xeyir-dua verərək Novruz bayramının xalqımıza ruzi-bərəkət gətirməsini arzuladı. Novruz bayramının əsas personajları olan Kosa və Keçəl Prezidenti və xanımını bayram münasibətilə təbrik etdilər, dövlətimizin başçısı ilə yumurta döyüşdürdülər.











Prezident İlham Əliyev və birinci xanım Mehriban Əliyeva "Bahar qalası" festivalı çərçivəsində yarmarka ilə tanış oldular.

Azərbaycan Dövlət Akademik Musiqili Teatrının əməkdaşları göstərdiyi diqqət və qayğıya görə Prezidentə təşəkkür etdilər.

Azərbaycan Prezidenti və xanımı Müasir İncəsənət Mərkəzində oldular. Dövlətimizin başçısı və xanımı Karvansarayda İçərişəhər sənətkarlarının əl işlərindən ibarət sərgiyə baxdılar. Prezident İlham Əliyev və birinci xanım Mehriban Əliyeva İçərişəhərdə sakinlərlə çay süfrəsi arxasında söhbət etdilər.

"Səma" uşaq rəqs ansamblının çıxışını izləyən dövlətimizin başçısı və xanımı ansamblın üzvləri ilə xatirə şəkli çəkdirdilər. Daha sonra Azərbaycan Prezidenti İlham Əliyev Qız qalasının qarşısındakı meydanda Novruz tonqalını alovlandırdı.

## Rəsmi xronika

Prezident İlham Əliyev Azərbaycan Respublikası Dövlət Şəhərsalma və Arxitektura Komitəsinin fəaliyyətinin təkmilləşdirilməsi ilə bağlı bəzi məsələlər haqqında Fərman imzalayıb.

***

Prezident İlham Əliyev Azərbaycan Respublikası Prezidentinin 2006-cı il 18 aprel tarixli 391 nömrəli fərmanı ilə təsdiq edilmiş "Azərbaycan Respublikasının Ədliyyə Nazirliyi haqqında Əsasnamə"də və 2017-ci il 3 may tarixli 1361 nömrəli fərmanı ilə təsdiq edilmiş "Rayon (şəhər) məhkəmələrinin baxdığı inzibati xətalar haqqında işlər üzrə protokol tərtib etmək səlahiyyəti olan vəzifəli şəxslərin Siyahısı"nda dəyişiklik edilməsi barədə Fərman imzalayıb.

***

Prezident İlham Əliyev Tunis Prezidenti Beji Kaid əs-Sebsiyə təbrik məktubu göndərib. Təbrikdə deyilir: "Hörmətli cənab Prezident, ölkənizin milli bayramı - Müstəqillik Günü münasibətilə Sizi və xalqınızı öz adımdan və Azərbaycan xalqı adından səmimi qəlbdən təbrik edirəm.

Ümidvaram ki, Azərbaycan-Tunis əlaqələri xalqlarımızın mənafelərinə uyğun olaraq daim genişlənəcək və inkişaf edəcəkdir. Bu əlamətdar gündə Sizə ən xoş arzularımı yetirir, dost Tunis xalqına sülh və rifah diləyirəm".

***

Prezident İlham Əliyev "Kitabxana işi haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə" Azərbaycan Respublikasının 2019-cu il 19 fevral tarixli 1506-VQD nömrəli Qanununun tətbiqi haqqında Fərman imzalayıb.

***

Prezident İlham Əliyev "Azərbaycan Respublikasının Torpaq Məcəlləsində dəyişiklik edilməsi haqqında" Azərbaycan Respublikasının 2019-cu il 5 mart tarixli 1526-VQD nömrəli Qanununun tətbiqi və "Azərbaycan Respublikasının 1999-cu il 25 iyun tarixli Qanunu ilə təsdiq edilmiş Azərbaycan Respublikasının Torpaq Məcəlləsinin tətbiq edilməsi barədə" Azərbaycan Respublikası Prezidentinin 1999-cu il 4 avqust tarixli 176 nömrəli Fərmanında dəyişiklik edilməsi haqqında Fərman imzalayıb.

## Əli Həsənov: Bob Woodwardın “Fear: Trump in the White House” kitabında yayılan məlumat yalan və saxtadır

*“Prezident İlham Əliyevin guya Prezident Donald Trampa yanlış məlumat verməsi barədə iddiaların heç bir əsası yoxdur”*



***Azərbaycan Respublikası Prezidentinin ictimai-siyasi məsələlər üzrə köməkçisi Əli Həsənov Azərbaycan Prezidenti İlham Əliyevin 2017-ci ildə ABŞ-a səfəri zamanı Prezident Donald Trampa yanlış məlumat verməsi barədə irəli sürülən iddialarla bağlı AZƏRTAC-a açıqlama verib.***

Əli Həsənov bildirib ki, Azərbaycan Prezidenti İlham Əliyevin 2017-ci ildə ABŞ-a səfəri zamanı Prezident Donald Trampa yanlış məlumat verməsi barədə “The Washington Post” qəzetində çalışan jurnalist Bob Woodwardın “Fear: Trump in the White House” kitabında əks olunmuş iddialar tam yalan və saxtadır. Prezident İlham Əliyev və Prezident Donald Tramp arasında cəmi bir dəfə - ABŞ-da keçirilmiş son prezident seçkilərindən dərhal sonra telefon danışığı olub, söhbət zamanı iki dövlət arasında əməkdaşlıq əlaqələrinin mövcud vəziyyəti və inkişaf perspektivi ilə bağlı fikir mübadiləsi aparılıb.

Prezidentin köməkçisi deyib ki, 2017-ci ilin sentyabrında BMT Baş Assambleyasının 72-ci sessiyasının açılışında iştirak etmək üçün ABŞ-a səfəri zamanı Prezident İlham Əliyevin ABŞ-ın dövlət başçısı ilə görüşü protokol xarakteri daşıyıb, həmin zaman heç bir söhbət olmayıb, yalnız foto-video çəkiliş həyata keçirilib. Buna görə də kitabda həmin görüşdə Azərbaycan Prezidentinin cənab Donald Trampa guya Çin Xalq Respublikasının Əfqanıstanda iqtisadi fəaliyyəti ilə bağlı hər hansı məlumat verməsi barədə irəli sürülən iddia “fake” informasiyadır və müəllifin fantaziyasından başqa bir şey deyil.

Əli Həsənov bildirib ki, ümumiyyətlə, Azərbaycan xarici siyasət məsələlərində yalnız öz milli maraqlarını rəhbər tutur və heç vaxt başqa ölkələr arasında siyasi, iqtisadi, humanitar və digər əlaqələrə müdaxilə etmir. Görünür, xaricdəki anti-Azərbaycan dairələr indi də davamlı şəkildə Azərbaycana qarşı “qara piar” kampaniyası aparan və “fake” xəbərlər üzrə ixtisaslaşmış “The Washington Post” nəşrinin əməkdaşı vasitəsilə ölkəmizin beynəlxalq imicini ləkələməyə, onun Çin Xalq Respublikası və Amerika Birləşmiş Ştatları ilə inkişaf edən əlaqələrinə xələl gətirməyə cəhd göstərirlər. Əminliklə deyə bilərik ki, belə çirkin əməllərin müəllifləri heç vaxt öz məqsədlərinə nail ola və Azərbaycanla tərəfdaşları arasında əlaqələrə zərbə vura bilməyəcəklər.

## “Atılan addımlar vətəndaşların güzəranının yaxşılaşmasına yönəlib”

“Prezident İlham Əliyevin rəhbərliyi ilə Azərbaycanda sosial müdafiə, sosial təminat sistemi dayanmadan genişləndirilir, inkişaf etdirilir”. SİA-nın verdiyi məlumata görə, bunu əmək və əhalinin sosial müdafiəsi naziri Sahil Babayev Bilgəhdəki Müharibə və əmək əlilləri üçün pansionatda Novruz bayramı münasibətilə keçirilən görüş zamanı deyb. Nazir birldirib ki, təkcə Prezident İlham Əliyev tərəfindən bu il verilən sərəncamlar, bu sahədə atılan addımlar, görülən işlər inqilabi xarakter daşıyır: “Müxtəlif müavinətlərin, təqaüdlərin 2 dəfədən çox, əmək haqları və pensiyaların 40 faizdən çox artırılması həqiqətən də inqilabi addımlardır və birbaşa Azərbaycan vətəndaşlarının güzəranının yaxşılaşmasına yönəlib”. S.Babayevin sözlərinə görə, sosial təminat, sosial müavinət sisteminin mütəmadi inkişafa ehtiyacı var: “Daim təkmilləşmə işləri apararaq müxtəlif kateqoriyadan olan əhaliyə xidmət keyfiyyətini daha da yaxşılaşdıracağıq”.

## Roberto Ampuero: Çili Azərbaycanla hərtərəfli əməkdaşlıqda maraqlıdır



Azərbaycanın xarici işlər naziri Elmar Məmmədyarov Çili Respublikasına rəsmi səfəri çərçivəsində bu ölkənin xarici işlər naziri Roberto Ampuero ilə görüşüb. Xarici İşlər Nazirliyinin mətbuat xidmətindən AZƏRTAC-a verilən məlumata görə, görüş zamanı Roberto Ampuero azərbaycanlı həmkarının Çiliyə ilk rəsmi səfərini yüksək qiymətləndirərək, bu səfərin iki ölkə arasında mövcud olan dostluq münasibətlərinin möhkəmləndirilməsinə önəmli töhfə verəcəyinə əminliyini bildirib. O, Çilinin Azərbaycanla hərtərəfli əməkdaşlıqda maraqlı olduğunu ifadə edib. Nazir Elmar Məmmədyarov iki ölkə arasında müxtəlif səviyyələrdə təmasların genişləndirilməsi və siyasi dialoqun davamlı şəkildə aparılması məqsədilə yüksək səviyyəli qarşılıqlı səfərlərin intensivləşdirilməsinin əhəmiyyətini vurğulayıb. Görüşdə iki ölkə arasında bu il 25 illik yubileyi qeyd olunacaq diplomatik münasibətlərin hazırkı vəziyyətindən məmnunluq ifadə olunub. Bu xüsusda, Azərbaycanda Çili səfirliyinin fəaliyyətə başlamasının ikitərəfli əlaqələrimizin inkişafına yeni təkan verəcəyi diqqətə çatdırılıb.

Nazirlər iqtisadi-ticarət, təhsil, turizm, kənd təsərrüfatı, enerji, nəqliyyat, sərmayə qoyuluşu və humanitar sahələrdə qarşılıqlı faydalı əməkdaşlıq üçün geniş imkanlar olduğunu qeyd ediblər. Həmçinin beynəlxalq gündəlikdəki aktual məsələlər, o cümlədən müvafiq olaraq regionlardakı vəziyyət barədə fikir mübadiləsi aparılıb. Bu kontekstdə Elmar Məmmədyarov həmkarını Ermənistan-Azərbaycan Dağlıq Qarabağ münaqişəsi üzrə danışıqlar prosesinin son vəziyyəti barədə məlumatlandırıb. Tərəflər arasında, habelə beynəlxalq təşkilatlar, o cümlədən Qoşulmama Hərəkatı çərçivəsində əməkdaşlıq və qarşılıqlı maraq doğuran digər məsələlər müzakirə olunub. Nazir Elmar Məmmədyarov Çili tərəfinin Qoşulmama Hərəkatının cari ilin oktyabr ayında Azərbaycanda keçiriləcək Sammitinə dəvət olunduğunu vurğulayaraq, Çilinin həmin tədbirdə yüksək səviyyədə təmsil olunacağına ümidvar olduğunu qeyd edib.

## “Əli İnsanov əvvəlki səhvinin mənəvi yükünü nəinki dərk edir, hətta onu yenidən etməyə hazırdır”

***Azərbaycan Respublikası Baş nazirinin müavini, Yeni Azərbaycan Partiyasının Sədr müavini-icra katibi Əli Əhmədov***



***Azərbaycan Respublikası Baş nazirinin müavini, Yeni Azərbaycan Partiyası Sədrinin müavini-İcra katibi Əli Əhmədov özünün facebook səhifəsində (https://www.facebook.com/Ali.C.Ahmadov/posts/302733670416195?__tn__=K-R) “Prezidentin humanistliyi və Əli İnsanova verilən şans” sərlövhəli yazısında Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin son əfv sərəncamı və nəticələri barədə mövqeyini ifadə etmişdir. yap.org.az saytı Əli Əhmədovun “Prezidentin humanistliyi və Əli İnsanova verilən şans” sərlövhəli məqaləsində toxunduğu mövzunun aktuallığını və siyasi yükünü nəzərə alaraq öz oxucu auditoriyasına təqdim edir:***

Açığını deyim, azadlıqdan məhrum edilmiş keçmiş səhiyyə naziri Əli İnsanovun Prezidentin əfv sərəncamına salınması mənim üçün tamamilə gözlənilməz oldu. Sonrakı müşahidələrim göstərir ki, onun azadlığa çıxmasına belə reaksiya tək mənə məsub deyil. Çoxları bu cür düşünür. Söhbət əsla qeyri-humanistlikdən getmir və gedə bilməz. Hər bir azərbaycanlı hörmətli Prezident İlham Əliyevin humanizmini yüksək qiymətləndirir, o cümlədən onun müxtəlif dövrlərə təsadüf edən çoxsaylı əfv aksiyalarına böyük dəyər verir. Dövlət başçısının humanist dəyərlərə sahib olması həqiqətən əvəzolunmaz nemətdir və insanlar onun böyük faydasını görürlər. Xalqımızın əziz bayramı Novruz ərəfəsində yüzlərlə ailənin sevincinin qazanılması məhz elə Prezidentin böyük humanizminin nəticəsidir. Elə adam tapmaq mümkün deyildir ki, böyük əfv sərəncamına görə Prezidentə minnətdarlığını ifadə etməsin. Çünki törətdiyi əməllərə görə qanuni əsaslarda azadlıqdan məhrum edilmiş insanları əvf etmək müstəsna olaraq Prezidentin səlahiyyətindədir. Elə buna görə də kimliyindən, siyasi düşüncəsindən və s. baxışlarından asılı olmayaraq azadlığa çıxanların hamısı Prezidentin humanist addımını lazımınca qiymətləndirə bildi. Daha doğrusu, malik olduğu insani keyfiyyətləri nümayiş etdirmiş oldu.

Lakin bir nəfər istisnadır. Keçmiş səhiyyə naziri Əli İnsanov azadlığa çıxan kimi ona azadlığı bəxş etmiş Azərbaycan Prezidentinə təşəkkür etmək əvəzinə fərqli ünvanlara üz tutmağa üstünlük verdi. Beləliklə də, adi mənəvi insani dəyər anlayışına formal da olsa əməl etməyə lüzum görmədi. Prezidentin böyük humanizmi əvəzində sadəcə minnətdarlıq etmək kimi insani borcunu ödəməyi bacarmadı. Əlbəttə,bu da bir əxlaqdır və açığını deyim heç də müsbət keyfiyyət kimi qiymətləndirilə bilməz. Məsələnin mahiyyətinə gəldikdə, mənim bildiyimə görə əsl həqiqət bundan ibarətdir ki, keçmiş səhiyyə naziri Əli İnsanovun azadlığa çıxarılmasını, onun özünün dediyinin tam əksinə olaraq, heç bir beynəlxalq təşkilat xahiş etməyib və bu mənada onun bəzi xarici dövlətlərə və beynəlxalq təşkilatlara minnətdarlıq etməsi, yumşaq desək, tamamilə yersizdir. Korrupsiya və vəzifə səlahiyyətlərini aşmaqda suçlanaraq azadlıqdan məhrum edilən birisini müdafiə etmək heç bir beynəlxalq təşkilatın ağlına belə gəlməz. Əli İnsanovun azadlığa çıxması məhz elə haldır ki, o, Prezident İlham Əliyevin şəxsi təşəbbüsü və böyük humanizmi sayəsində reallaşıb. Bunu bilməmək, qiymətləndirməmək nəinki səhvdir, həm də hesab edirəm ki, böyük qəbahətdir. Onu da qeyd edim ki, bu fikri çoxları bölüşür.

Əli İnsanov hər dəfə ciddi suçlarına görə qanunla cəzasını alıb. Mən onun əməllərinə hüquqi qiymət vermək istəmirəm. Hüquqi qiymət məhkəmə tərəfindən verilir. Ancaq onun suçunun mənəvi tərəfi də var. Bunun da adı Heydər Əliyev yoluna xəyanətdir. Azadlığa çıxan kimi verdiyi bəyanatlar deməyə əsas verir ki, o, əvvəlki səhvinin mənəvi yükünü nəinki dərk edir, hətta onu yenidən etməyə hazırdır. Heydər Əliyev yoluna sadiq olan insanlar bu xəyanəti ona bağışlamırlar və heç zaman bağışlamayacaqlar.

Əli İnsanovun digər səhvi özünü Qərbi Azərbaycanlıların ağsaqqalı elan etməsidir. Açığı, sözügedən çoxsaylı toplum heç zaman onu özünə ağsaqqal seçməyib. Zamanında Qərbi Azərbaycanlıların lideri Heydər Əliyev idi, indi isə Azərbaycan Prezidenti İlham Əliyevdir. Azərbaycan xalqının lideri sözügedən toplumun da şəksiz lideridir. Qərbi Azərbaycan əsilli insanlar Prezident İlham Əliyevin ətrafında sıx birləşiblər, onu qətiyyətlə müdafiə edirlər, yolunda və uğrunda hər cür fədakarlıq göstərməyə hazırdırlar. Bir də ki, o insanlar mövqeyini, dövlətə və dövlətçiliyə bağlılığını heç zaman dəyişmirlər və dəyişmək fikrində deyillər. Xırda hisslər, cılız ambisiyaçılıq onlara xas deyil və heç zaman xas olmayıb. Onlar üçün ən böyük sevinc və mənəvi qida mənbəyi Prezident İlham Əliyevin rəhbərliyi altında Azərbaycanın daha da çiçəklənməsi, qüdrətinin artması, insanların rifahının yaxşılaşmasıdır.

Prezident İlham Əliyev böyük humanistliyini göstərdi. Növbədə Əli İnsanovun Prezident humanistliyinin mahiyyətini və miqyasını dərk etməsidir. Prezidentin əfvi Əli İnsanov üçün ciddi şansdır. Bu şansı necə qiymətləndirmək onun işidir. İstərdik ki, Əli İnsanov olub keçənlərdən düzgün nəticə çıxarsın. Vaxtilə dəfələrlə sədaqət andı içdiyi və onu yüksək dövlət postuna-səhiyyə naziri vəzifəsinə təyin etmiş Heydər Əliyevin xatirəsinə hörmət əlaməti olaraq onun məzarını ziyarət edib, çiçəklər qoysun. Xalqımızın çoxəsrlik ənənəsinə uyğun olaraq onun belə bir hərəkəti Novruz bayramında çox yerində olardı.

***Ceyhun Rasimoğlu***

# Akademik Nərgiz Paşayeva Oksford Universitetinin Bodli Kitabxanasının yaradıcısının şərəfinə təşkil edilən təntənəli qəbulda iştirak edib

***M.V.Lomonosov adına Moskva Dövlət Universitetinin (MDU) Bakı filialının rektoru, akademik Nərgiz Paşayeva martın 15-də Oksford Universitetinin Bodli kitabxanasının rəhbəri Riçard Ovendenin dəvəti ilə Bodli kitabxanasının yaradıcısı Ser Tomas Bodlinin şərəfinə universitetin ali akademik heyəti və fəxri qonaqları üçün təşkil edilmiş 31-ci təntənəli tədbirdə iştirak edib. https://www.bodleian.ox.ac.uk/).***







Oksford Universiteti nəzdində fəaliyyət göstərən Nizami Gəncəvi adına Azərbaycan və Qafqazşünaslıq Elmi Mərkəzindən AZƏRTAC-a verilən məlumata görə, Ser Tomas Bodlinin xatirəsinə və onun filantropik fəaliyyətinə həsr edilmiş bu mühüm ənənəvi tədbirdə hər il məşhur alimlər, ictimai xadimlər, Böyük Britaniya Parlamentinin üzvləri, Oksford Universitetinin əsas akademik tərəfdaşları, universitetin ali rəhbərliyi və administrasiyası iştirak edir.

Xatırladaq ki, 2018-ci il oktyabrın 11-də MDU-nun Bakı filialının rektoru, AMEA-nın vitse-prezidenti, akademik Nərgiz Paşayeva təntənəli surətdə Oksford Universitetinin kansleri lord Patten Barnesin başçılıq etdiyi Xeyriyyəçilər Komitəsinə üzv qəbul edilib. Professor Nərgiz Paşayeva məşhur alimlər, ictimai xadimlər və Oksford Universitetinin qarşısında xüsusi xidmətləri olan nüfuzlu təşkilatlardan ibarət Xeyriyyəçilər Komitəsinə qəbul edilmiş Azərbaycanın ilk akademik nümayəndəsi olub. Lord Patten Barnes vurğulayıb ki, Nərgiz Paşayeva "Oksford Universitetinin böyük dostu və akademik tərəfdaşıdır".

Builki təntənəli qəbulun 80 nəfərə yaxın nüfuzlu qonaqlarını Oksfordun əsas tədqiqat kitabxanası olan Ueston Kitabxanasının (Weston Library, https://www.bodleian.ox.ac.uk/weston) Bləkvell Hollda (Blackwell Hall) Bodli kitabxanasının rəhbəri Riçard Ovenden (Richard Ovenden, https://www.bodleian.ox.ac.uk/-weston/about/librarian) salamlayıb.

Sonra kiçik konfrans zalında "Tanınmamış qanunvericilər: ədəbiyyat və cəmiyyət" (Unacknowledged legislators: literature and society") mövzusunda ekspert diskussiyası keçirilib. Diskussiya britaniyalı yazıçı, jurnalist və tənqidçi (1992-2002-ci illərdə "The Times" nəşrinin redaktoru, 2002-2016-cı illərdə "The Times" nəşrinə ədəbi əlavənin redaktoru) ser Piter Stothardın (Sir Peter Stothard, https://www.revolvy.com/page/Peter-Stothard) sədrliyi ilə keçirilib. Diskussiyanın digər aparıcıları nigeriyalı şair və çoxsaylı romanların müəllifi, Buker mükafatı laureatı, cəngavər ordeni, Kral Ədəbiyyat Cəmiyyətinin üzvü Ben Okri (Ben Okri, https://www.britannica.com/-biography/Ben-Okri) və britaniyalı yazıçı və tarixçi, professor, Britaniya Akademiyasının fəxri üzvü, cəngavər ordeni, Kral Ədəbiyyat Cəmiyyətinin üzvü və onun ilk (2017-ci ildə) qadın prezidenti Deym Marina Uorner olmuşdur. (Dame Marina Sarah Warner, https://www.thebritishacademy.ac.uk/fellows/marina-warner-FBA).

Tədbir çərçivəsində Bodli Kitabxanasının ilk tərkib hissəsindən biri olan, XV əsrdə yaradılmış İlahiyyat Məktəbində (Divinity School, https://www.bodleian.ox.ac.uk/-whatson/venue-hire/rooms-available#div_school) təntənəli ziyafət verilib. Qeyd edək ki, İlahiyyat Məktəbində tədris məşğələləri və imtahanlarla bərabər çox sayda mühüm görüşlər, hətta Kral səfərləri də olub. Bu binanın tavanı Avropa Qotik memarlığının ən böyük nailiyyətlərindən biri hesab edilir.

Rəsmi hissədə Riçard Ovenden, həmçinin Oksford Universitetinin kansleri lord Patten Barnes qonaqların qarşısında çıxış ediblər (https://www.ox.ac.uk/about/organisation/university-officers/chancellor?wssl=1).

Bodli Kitabxanasının rəhbəri R.Ovenden rəsmi qəbul zamanı çıxışında Oksford Universiteti nəzdində Nizami Gəncəvi adına Azərbaycan və Qafqazşünaslıq Elmi Mərkəzinin fəaliyyətini xüsusi qeyd edib. Özlüyündə çox şeyə dəlalət edən bu fakt Mərkəzin elmi-akademik, təhsil-maarifçilik və tarix-arxeologiya sahələrində gərgin işinin nəticəsini təsdiq edir.

Xatırladaq ki, professor Nərgiz Paşayevanın təşəbbüsü ilə Oksford Universitetinin nəzdində yaradılmış Nizami Gəncəvi adına Azərbaycan və Qafqazşünaslıq Elmi Mərkəzi 2013-cü ildən Azərbaycanın, Qafqazın və Orta Asiyanın zəngin tarixi-mədəni irsinin öyrənilməsinə və onu Qərbin elmi-akademik dairələrində populyarlaşdırmaq məqsədinə xidmət edir (https://www.orinst.ox.ac.uk/nizami-ganjavi-programme-study-languages-and-cultures-azerbaijan-and-caucasus). 2018-ci il mayın 23-də Klarendon Kollecində Oksford Universitetinin vitse-kansleri, professor Luiz Riçardson və professor Nərgiz Paşayeva tərəfindən imzalanmış sazişə əsasən Nizami Gəncəvi adına Azərbaycan və Qafqazşünaslıq Elmi Mərkəzi Oksford Universitetində daimi əsasda onun ayrılmaz tərkib hissəsi kimi fəaliyyətə başlayıb. Bu fakt, heç şübhəsiz, mədəni, elmi və humanitar miqyaslı tarixi əhəmiyyətli hadisədir. Təsadüfi deyil ki, bu hadisəni Azərbaycanda elm, mədəniyyət və təhsil sahəsində "Əsrin kontraktı" adlandırdılar. Elmi Mərkəz yaradıldığı gündən bir sıra mühüm elmi-akademik layihə həyata keçirib. Onların arasında elmi-praktiki konfransları, şərqşünas alim Yevgeni Bertelsin (1890-1957) "Böyük Azərbaycan şairi Nizami Gəncəvi" (The Great Azerbaijani Poet Nizami) kitabının ingilis dilinə ilk akademik tərcüməsini, Mərkəzin dəstəyi ilə altı tələbənin Oksford Universitetində təhsil almasını, Oksford Universitetinin arxeoloqları tərəfindən Bərdə şəhərində qazıntılar aparılmasını və başqalarını qeyd etmək olar.

2018-ci ilin aprel ayında akademik Nərgiz Paşayevanın Bodli Kitabxanasının rəhbəri Riçard Ovenden ilə kitabxananın əsas binasında keçirilmiş işgüzar görüşündə tərəflər Oksford Universiteti nəzdində Nizami Gəncəvi adına Azərbaycan və Qafqazşünaslıq Elmi Mərkəzinin fəaliyyətini müzakirə ediblər. Oksford Universitetinin Şərqşünaslıq İnstitutunun kitabxanasına Nizami Gəncəvinin adının verilməsi barədə Nərgiz Paşayevanın irəli sürdüyü təklif Britaniya tərəfindən müsbət qəbul edilib və bu, dahi Azərbaycan şair-mütəfəkkirinin dərin fəlsəfəsində və yaradıcılığında təcəssüm olunan humanist, ümumbəşəri ideyalara verilən daha bir layiqli qiymət olub.

Bodli Kitabxanasının rəhbəri və Oksford Universitetinin kansleri 2018-ci ildə kitabxana üçün xüsusi əhəmiyyət kəsb edən hadisələr arasında dövrünün çox məşhur ingilis şair və dramaturqu, 1913-cü ildə şair-laureat olmuş Robert Seymur Bricesin (1844-1930) https://www.poetryfoundation.org-/poets/robert-bridges) arxivinin əldə edilməsini də qeyd edib. Brices ingilis metrikası sahəsində dərin tədqiqatlarla məşğul olub və ingilis şeirinin tonik mənşəyi barədə öz nəzəriyyəsini yaradıb. 2018-ci ilin noyabr ayında Bricesin arxivi, o cümlədən onun yaxın dostu, ingilis şair və katolik keşiş Cerard Menli Hopkinskin (1844-1889, https://www.poetryfoundation.org/poets/gerard-manley-hopkins) məktubları və əlyazmaları, habelə yazıçı və şair Tomas Hardinin (1840-1928), yazıçı və şair Redyard Kiplinqin (1865-1936) və o dövrün bir sıra başqa yazıçı və şairlərinin məktubları Robert Bricesin vərəsələri tərəfindən Bodli Kitabxanasına verilib. Bodli Kitabxanasının rəhbəri Riçard Ovenden deyib: "Bricesin arxivinin əhəmiyyəti bundadır ki, o, XIX-XX əsrlərin böyük yazıçılarının şəxsiyyətini anlamaqda və daha yüksək qiymətləndirməkdə bizə kömək edir".

Təntənəli tədbirin sonunda dünya şöhrətli hindistanlı iqtisadçı və filosof, Şərəf Kavalerləri ordenli, Britaniya Akademiyasının üzvü, 1998-ci ildə iqtisadiyyat sahəsində Nobel mükafatı laureatı, professor Amartiya Sen (https://www.nobelprize.org/prizes/economic-sciences/1998/sen/biographical/) Bodli medalı ilə təltif edilib (https://oxfordliteraryfestival.org/literature-events/2019/april-3/bodley-lecture-and-award-of-bodley-medal). Qeyd edək ki, Bodli medalı ədəbiyyat, mədəniyyət və informasiya mübadiləsi kimi sahələrə verdiyi sanballı fərdi töhfəyə görə, habelə Bodli Kitabxanasını təkcə Oksfordun deyil, bütün dünyanın kitab xəzinəsi hesab edən Ser Tomas Bodlinin ideallarına çatmağa kömək etdiyinə görə Bodli Kitabxanası tərəfindən verilir. Məlumat üçün bildirək ki, Amartiya Sen bəşəriyyətin və insanın inkişafı indeksi haqqında BMT-nin illik hesabatlarının konseptual strukturunun ifadə edilməsinə sanballı töhfəsi ilə məşhurdur. Alim "rifahın iqtisadi nəzəriyyəsinə töhfəyə görə" Nobel mükafatına layiq görülüb.

Bodli Kitabxanası (https://www.bodleian.ox.ac.uk/) Oksfordun əsas kitabxanasıdır. Bu kitabxana Avropada ən qədim kitabxana hesab edilmək hüququ uğrunda Vatikan Kitabxanası ilə, ölkəsinin ən iri kitab toplusu titulu uğrunda Britaniya Kitabxanası ilə bəhsə girir. Bodli qrupuna daxil olan bütün kitabxanalarda 13 milyondan çox mətbu nüsxə və digər artefaktlar var.

Kitabxananın kitab fondu XIV əsrdə Vuster Yepiskopu Uilyam Kobenin (1327-ci ildə vəfat edib) vəsiyyətinə əsasən yaradılmış ilk məlum Oksford Kitabxanasından başlanır. Kitabxana Kraliça I Yelizavetanın sarayında çalışmış alim və diplomat Ser Tomas Bodlinin (1545-1613) sayəsində faktiki olaraq xilas edilib və ikinci həyatını qazanıb. 1598-ci ildə Ser Bodlinin səyləri ilə köhnə kitabxana yenidən qurularaq təqribən 2500 kitabdan ibarət kolleksiyanın saxlanması üçün uyğunlaşdırılıb, kitabxanaçı təyin edilib və 1602-ci il noyabrın 8-də kitabxananın açılışı olub. Bodlinin gördüyü işlər bununla bitmir. 1610-cu ildə o, ölkədə buraxılan bütün nəşrlərin zəruri nüsxəsini almaq hüququna nail olub. Ser Bodlinin ölümündən sonra da kitabxana fəaliyyətini davam etdirərək, bütün Avropadan alimləri cəlb edən nəşrlər kolleksiyasına çevrilib.

Oksford Universitetinin ayrılmaz tərkib hissəsi olan Nizami Gəncəvi adına Azərbaycan və Qafqazşünaslıq Elmi Mərkəzinin fəaliyyəti dünyanın aparıcı akademik və ictimai xadimlərinin - alimlərin, məşhur yazıçıların, siyasətçilərin, jurnalistlərin daimi diqqət mərkəzindədir. Həqiqətən çox önəmlidir ki, Mərkəzin yorulmaq bilməyən elmi və funksional fəaliyyəti sayəsində Azərbaycanın mədəni, tarixi və ədəbi irsi qarşısında yeni imkanlar və üfüqlər açılır.

# “Azərbaycan hökuməti bütün ahıllara həmişə diqqət və qayğı göstərir”

## *Baş nazirin müavini bayram tədbirində iştirak edib*

***Azərbaycan Respublikası Baş nazirinin müavini, Yeni Azərbaycan Partiyası Sədrinin müavini-İcra katibi Əli Əhmədov Dövlət Sosial Müdafiə Fondunun Pensiya yaşına çatmış şəxslər üçün sosial xidmət müəssisəsində keçirilən bayram tədbirində iştirak edib. SİA-nın verdiyi məlumata görə, bayram şənliyində çıxış edən Baş nazirin müavini Əli Əhmədov, eləcə də əmək və əhalinin sosial müdafiəsi naziri Sahil Babayev Novruz bayramı münasibətilə müəssisənin sakinlərini təbrik edib, onlara xoş arzularını bildiriblər.***



Baş nazirin müavini Əli Əhmədov Ümummilli Liderimiz Heydər Əliyev tərəfindən əsası qoyulan uğurlu sosial siyasətin Prezident İlham Əliyev tərəfindən yüksək səviyyədə davam və inkişaf etdirildiyini, bu siyasətin mərkəzində insan amilinin dayandığını vurğulayıb. Əli Əhmədov bildirib ki, bunun nəticəsi olaraq, ölkədə dinamik iqtisadi inkişaf prosesləri vətəndaşların rifah halının yaxşılaşdırılması istiqamətində mühüm irəliləyişlərin əldə olunması ilə nəticələnir. 2019-cu ilin ötən dövründə dövlət başçısının imzaladığı fərman və sərəncamlar da əhalinin sosial müdafiəsinin gücləndirilməsində inqilabi addımlardır. Eyni zamanda, dövlət himayəsində yaşayan tənha yaşlı və ahıl insanların normal yaşayış şəraiti, onların etibarlı sosial müdafiəsi təmin olunur.







Əli Əhmədov yaşlı nəslə, ahıllara həmişə diqqət və qayğı göstərilməsi işlərində YAP-ın da fəal iştirak etdiyini, partiyanın nümayəndələrinin tez-tez bu müəssisədə görüşlər keçirdiyini və burada yaşayanlara öz dəstəyini göstərdiyini vurğulayıb. Əli Əhmədov qeyd edib ki, Azərbaycan hökuməti bütün insanlara, o cümlədən ahıllara həmişə diqqət və qayğı göstərir: “Bu xidmət müəssisəsinin sakinləri üçün lazım olan bütün imkanlar və şərait yaradılıb. Məmnunluq hissi ilə qeyd etmək istəyirəm ki, burada yaşayan insanların əhval ruhiyyəsinin yaxşı olması bizi sevindirir. Bu, bizim hökumətimizin həyata keçirdiyi siyasətin humanizmindən, insanpərvərliyindən, insanlara qayğısından xəbər verir. Prezident İlham Əliyevin bu gün həyata keçirdiyi siyasətin əsas qayəsi də ondan ibarətdir ki, dövlətimizin iqtisadi imkanlarından hər bir vətəndaşın həyatının yaxşı təşkil olunması üçün istifadə edilsin, o cümlədən də qayğıya ehtiyacı olan bütün insanlar diqqət mərkəzindən kənarda qalmasın”.

Nazir Sahil Babayev vurğulayıb ki, Ulu Öndər Heydər Əliyev tərəfindən bu müəssisədə yaşayan ahıl insanlara daim diqqət və qayğı ilə yanaşılıb və Prezident İlham Əliyevin uğurlu sosial siyasəti bütün həssas qruplar kimi, tənha ahıl vətəndaşların da rifah halının yaxşılaşdırılması tədbirlərinin ildən-ilə güclənməsinə səbəb olub. Son illərdə dövlət başçısının tapşırığı ilə pensiya yaşına çatmış şəxslər üçün sosial xidmət müəssisəsində müasir tələblərə uyğun şərait yaradılmaqla, burada yeni ikinci korpus tikilib. Prezident İlham Əliyev və xanımı Mehriban Əliyeva həmin korpusun açılışında iştirak edərək, buradakı yaşlı, ahıl insanlarla görüşüb, onlarla həmsöhbət olublar. Bu da ahıl insanlara yüksək qayğının, hörmət və ehtiramın bir nümunəsidir.

Sahil Babayev Prezident İlham Əliyev tərəfindən cari ildə imzalanan fərman və sərəncamların həssas qruplara dövlət qayğısının əhəmiyyətli şəkildə artmasına imkan verdiyini vurğulayıb. O bildirib ki, eyni zamanda, pensiyaçıların sosial müdafiəsinin gücləndirilməsi, pensiya təminatının yaxşılaşdırılması, pensiyaların ciddi şəkildə artırılması istiqamətində əhəmiyyətli addımlar atılıb. Həyata keçirilən bu mühüm sosial müdafiə tədbirləri vətəndaşlarımızın Novruz bayramını daha nikbin duyğularla qarşılamasına, bayram əhval-ruhiyyəsinin xeyli artmasına səbəb olub. Bütün bunlar bir daha göstərir ki, dövlət başçısının apardığı siyasət Azərbaycan vətəndaşının, o cümlədən yaşlı, ahıl insanların layiqli yaşayış səviyyəsinin təminatına xidmət edir.

230 nəfərin yaşadığı müəssisənin sakinləri ürək sözlərini bildirərək, onlara göstərilən yüksək qayğıya, sosial müdafiə tədbirlərinin, pensiyaçıların sosial müdafiəsinin gücləndirilməsi üçün atılan mühüm addımlara, eyni zamanda, dövlətin himayəsində yaşayan yaşlı, ahıl insanlar üçün yaradılan müasir, rahat şəraitə görə Azərbaycan Prezidenti cənab İlham Əliyevə minnətdarlıqlarını ifadə ediblər.

YAP İcra katibinin müavinləri Dini Qurumlarla İş üzrə Dövlət Komitəsinin sədri Mübariz Qurbanlı YAP və Milli Məclisin İctimai birliklər və dini qurumlar komitəsinin sədri Siyavuş Novruzov görüşdə iştirak ediblər.

***Ceyhun Rasimoğlu***

# Azərbaycan heç bir qüvvənin diktəsi ilə hərəkət etmir, tam müstəqil siyasət həyata keçirir

*YAP İcra katibinin müavini, Dini Qurumlarla İş üzrə Dövlət Komitəsinin sədri Mübariz Qurbanlının yap.org.az-a müsahibəsi*

***- Mübariz müəllim, beynəlxalq dialoq və əməkdaşlıq məkanına çevrilən, dünyada multikulturalizmin mərkəzlərindən biri kimi tanınan Azərbaycan bu günlərdə VII Qlobal Bakı Forumuna uğurla ev sahibliyi etdi. Forumun regional və qlobal məsələlərin müzakirəsi baxımından əhəmiyyəti nədən ibarətdir?***

- Bu gün Avropa məkanında dinlər və mədəniyyətlərarası dialoqa nail olmaq, dünyada sülh və əmin-amanlığı bərqərar etmək üçün bütün beynəlxalq təşkilatların və ölkələrin səylərinin birləşdirilməsi vacibdir. Tolerantlıq nümunəsi olan Azərbaycan bu prosesdə çox fəal və aparıcı rola malikdir, dinlər və sivilizasiyalararası dialoqa xidmət edən çox mühüm təşəbbüslər irəli sürür. Əgər müstəqilliyinin ilk dövrlərində Azərbaycan dünyada mədəniyyətlərarası dialoq prosesinin aktiv iştirakçısı idisə, indi, demək olar ki, bu prosesin hərəkətverici qüvvəsinə çevrilmişdir. Paytaxt Bakı Ümumdünya Mədəniyyətlərarası Dialoq Forumuna, Dünya Dini Liderlərinin Sammitinə və digər nüfuzlu beynəlxalq tədbirlərə uğurla ev sahibliyi edir, sivilizasiyalararası dialoqun intensiv və faydalı xarakter daşımasına fundamental töhfələr verir. Martın 14-16-da Azərbaycanın paytaxtında keçirilən VII Qlobal Bakı Forumu da bu baxımdan xüsusi əhəmiyyətə malikdir.

### Multikulturalizmin Azərbaycan təcrübəsi dünyada mütərəqqi nümunə kimi qəbul edilir

Multikulturalizmin Azərbaycan təcrübəsi dünyada mütərəqqi nümunə kimi qəbul edilir. Əsrlər boyunca Azərbaycan müxtəlif dinlərin və etnik qrupların nümayəndələrinin sülh və əmin-amanlıq şəraitində yaşadığı yer olub. Biz bu gün də bu reallığın şahidi oluruq. Bu gün heç kim, hətta bizə ikili standartlar prizmasından yanaşmağı ənənəyə çevirmiş dairələr də Azərbaycanda multikultural mühitin mövcudluğunu inkar edə bilmirlər, ölkəmizin tolerantlıq nümunəsi olduğunu diqqətə çatdırırlar. Ölkədə multikultural mühitin qorunması və inkişafı yönündə ardıcıl, məqsədyönlü addımların atılması, xüsusilə Prezident İlham Əliyevin multikulturalizmi dövlət siyasətinin prioritet istiqamətlərindən birinə çevirməsi reallıqdır. Bir sözlə, multikulturalizm mərkəzlərindən birinə çevrilən Azərbaycan dünyaya mütərəqqi dəyərlər təqdim edir, qlobal əhəmiyyətli təşəbbüsləri ilə sivilizasiyalararası dialoqa mühüm töhfələr verir.

***- Azərbaycanın inkişafından***



***və beynəlxalq mövqeyinin möhkəmlənməsindən ciddi narahatlıq keçirən anti-Azərbaycan dairələr və "beşinci kolon" nümayəndələri ölkəmizin əldə etdiyi uğurların və müsbət imicinin üzərinə kölgə salmağa, ictimai rəyi manipulyasiyaya məruz qoymağa çalışırlar. Bunun arxasında duran səbəblər nədir?***

- Əvvəla qeyd edim ki, "beşinci kolon" anlayışı İspaniyada Franko rejimi ilə respublikaçılar arasında baş verən müharibə zamanı meydana gəlib. Bu anlayış xarici qüvvələrlə əlbir olaraq öz millətinə, dövlətinə xəyanət edən qrupları təsvir etmək üçün istifadə olunur. Yəni bu qüvvələr düşmənlə sinxron hərəkət edərək antimilli mövqedən çıxış edirlər. Tarixdə bu barədə çoxsaylı nümunələr mövcuddur. Çox təəssüf ki, Azərbaycanda da milli maraqlara zidd mövqe nümayiş etdirən belə marginal qruplar olub və bu gün də var. Eyni zamanda, Azərbaycanda ictimai, siyasi, elmi, mədəni və digər sahələrdə heç bir uğur əldə edə bilməyən, xaricə gedərək anti-Azərbaycan dairələrlə birlikdə ölkəmizə qarşı ideoloji təxribatlarda iştirak edən adamlar məhz "beşinci kolon" nümayəndələridir. Elə ölkə daxilindəki xəyanətkar ünsürlərin də antimilli əməlləri göz önündədir. Üstəlik, onların erməni lobbisi, xaricdəki erməni təşkilatları ilə əlaqələrinin olmasına dair məlumatlar da var.

### Azərbaycan əleyhinə qarayaxma kampaniyası aparanların, o cümlədən sosial şəbəkələrdə yalan məlumatlar yayanların "fəaliyyət"i xalq tərəfindən ciddi narazılıqla qarşılanır

Azərbaycan dinamik inkişaf yolunda əmin addımlarla irəliləyir, ölkəmizin beynəlxalq mövqeyi davamlı olaraq möhkəmlənir. Bununla yanaşı, ölkəmizdə zamanın çağırışlarına uyğun olaraq genişmiqyaslı islahatlar həyata keçirilir, ölkəmizin qüdrətinin daha da artmasına xidmət edən mühüm addımlar atılır. Son zamanlar Prezident İlham Əliyevin imzaladığı fərman və sərəncamlara uyğun olaraq həyata keçirilən tədbirlər sosial, iqtisadi və digər sahələri əhatə edən islahatların davamlı xarakter daşıdığını göstərir. Yəni bütün bu tədbirlər uzunmüddətli islahatlar paketinin tərkib hissəsidir. Təbii ki, bu reallıqlar anti-Azərbaycan dairələri narahat edir və həmin qüvvələr ölkəmizə qarşı "beşinci kolon"dan istifadə edirlər. Ermənipərəst qüvvələrin maraqlarını müdafiə edən antimilli ünsürlər sosial şəbəkələr və müxtəlif internet resursları vasitəsilə həqiqətə uyğun olmayan məlumatlar yayaraq iddia edirlər ki, guya bu islahatlar onların "fəaliyyət"i nəticəsində baş tutub. Bu, gülünc və heç bir əsası olmayan iddiadır. Onların məqsədi Azərbaycanın inkişafına, vətəndaşların sosial rifahının daha da yaxşılaşmasına xidmət edən, qarşıya qoyulan hədəflərə çatmağa imkan verən tədbirlərin, islahatların və müsbət reallıqların üzərinə kölgə salmaqdır. Onlar, həmçinin müxtəlif ideoloji təxribatlar vasitəsilə ölkədə ictimai-siyasi sabitliyin pozulmasına çalışırlar. Amma bütün bu cəhdlər faydasız və nəticəsizdir. Azərbaycanda xalq-iqtidar birliyi mövcuddur, ölkədə sabitlik və inkişaf hökm sürür. Azərbaycan xalqı reallıqları görür və yüksək qiymətləndirir. Azərbaycan Prezident İlham Əliyevin rəhbərliyi ilə böyük inkişaf yolu keçərək regionun lider dövlətinə çevrilib, paytaxt Bakının və regionların siması əhəmiyyətli dərəcədə dəyişilib, əhalinin sosial müdafiəsi daha da gücləndirilib və bütün bunlar Azərbaycanın qüdrətinin artmasını təmin edib. Bütün bu reallıqları görən ölkə vətəndaşları Prezident İlham Əliyevin rəhbərliyi ilə həyata keçirilən siyasəti yüksək qiymətləndirir, bu siyasətin Azərbaycanın gələcək inkişafının əsası olduğunu anlayır və dövlət başçısına, Onun siyasətinə böyük inamını ifadə edirlər. Ona görə də Azərbaycan əleyhinə qarayaxma kampaniyası aparanların, o cümlədən sosial şəbəkələrdə yalan məlumatlar yayanların "fəaliyyət"i xalq tərəfindən ciddi narazılıqla qarşılanır.

***- Ermənipərəst dairələrin sifarişlərini yerinə yetirən xaricdəki anti-milli ünsürlər isə Azərbaycan xalqına və dövlətinə qarşı təhqir kampaniyası aparır, xalqımızın milli-mənəvi dəyərlərini hədəfə alırlar. Bununla bağlı fikirləriniz nədən ibarətdir?***

- Azərbaycan xalqı yaşatdığı və təbliğ etdiyi ümumbəşəri və mütərəqqi ideyaları, adət-ənənələri, milli xüsusiyyətləri ilə fərqlənir. Digər tərəfdən, milli-mənəvi dəyərlərimizin qorunması, təbliği əsas məsələlərdən biri kimi hər bir azərbaycanlının qarşısında duran mühüm vəzifələrdəndir. Tarixi şəxsiyyətlər də bizim milli-mənəvi dəyərlərimizdir. Onların irsinin qorunması və nəsillərə ötürülməsi də bu baxımdan müstəsna əhəmiyyətə malikdir. Azərbaycan dövləti bu istiqamətdə ardıcıl və məqsədyönlü iş aparır. Azərbaycan Respublikasının Dini Qurumlarla İş üzrə Dövlət Komitəsinin tabeliyində Mənəvi Dəyərlərin Təbliği Fondu tərəfindən həyata keçirilən işlər də bu baxımdan xüsusi qeyd edilməlidir.

Təəssüf ki, milli maraqlara zidd mövqe tutan, ermənilərin maraqlarının müdafiəçisinə çevrilmiş anti-milli ünsürlər, "beşinci kolon" nümayəndələri Azərbaycan xalqını, onun milli-mənəvi dəyərlərini hədəfə alırlar, təhqir kampaniyası aparırlar. Onlar Azərbaycan xalqının milli xüsusiyyətlərinə, tarixi şəxsiyyətlərimizə qarşı təhqiramiz fikirlər səsləndirməklə əsl simalarını ortaya qoymuş olurlar. Şübhəsiz ki, anti-Azərbaycan dairələrin alətinə çevrilmiş bu ünsürlərin təhqir kampaniyası cəmiyyətdə böyük hiddət və narazılıqla qarşılanır. Cəmiyyət nümayəndələri bu cür kampaniyaların məhz erməniparəst dairələrin sifarişi əsasında həyata keçirildiyini bilir, "sapı özümüzdən olan baltalar"ın çirkin əməllərinin yolverilməz olduğunu qətiyyətlə ifadə edir.

***- Mübariz müəllim, martın 16-da Prezident İlham Əliyevin "Məhkum edilmiş bir sıra şəxslərin əfv olunması haqqında" Sərəncam imzalaması Azərbaycan cəmiyyəti və beynəlxalq təşkilatlar tərəfindən olduqca yüksək qiymətləndirilir. Lakin bəziləri bu böyük humanizm aktının üzərinə kölgə salmaq üçün absurd iddialar səsləndirir, həqiqətə uyğun olmayan fikirlər ifadə edirlər...***

- Əvvəlcə qeyd edim ki, Azərbaycanda məhkumların əfv olunması, vətəndaşlara humanist münasibətin göstərilməsi davamlı xarakter daşıyır. Bu günə qədər ölkəmizdə 70-ə yaxın əfv Sərəncamı imzalanıb. Martın 16-da Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev tərəfindən imzalanan "Məhkum edilmiş bir sıra şəxslərin əfv olunması haqqında" Sərəncam da bu baxımdan xüsusi qeyd edilməlidir. Sərəncama əsasən, azadlıqdan məhrum etmə cəzasına məhkum olunmuş 399 nəfər cəzasının çəkilməmiş hissəsindən azad edilib. Bundan başqa, ömürlük azadlıqdan məhrum etmə cəzasına məhkum edilmiş üç nəfərdən birinin cəzası 25, iki nəfərinki isə 20 il müddətə azadlıqdan məhrum etmə cəzası ilə əvəzlənib. Azadlıqdan məhrum etmə cəzasına məhkum olunan və cəzasının çəkilməsi təxirə salınmış bir nəfər cəzadan azad edilib. Həmçinin azadlıqdan məhrumetmə cəzasına şərti olaraq məhkum edilmiş 11 nəfər cəzadan azad olunub. Eləcə də azadlığın məhdudlaşdırılması cəzasına məhkum edilmiş bir nəfər cəzasının çəkilməmiş hissəsindən azad edilib. Üç nəfər islah işləri cəzasından, bir nəfər ictimai işlər cəzasından, 12 nəfər isə cərimə cəzasından azad edilib. Göründüyü kimi, Prezident İlham Əliyev imzalanan əfv Sərəncamı böyük humanizm nümunəsi olmaqla yanaşı, dövlətin öz vətəndaşlarına yüksək diqqət və qayğısını əks etdirir.

### Bəzi adamların iddiaları ilə müddəaları üst-üstə düşmür, tərs mütənasiblik təşkil edir

Təəssüf ki, bu humanizm aktının üzərinə kölgə salmaq istəyənlər də var. Vaxtilə müxtəlif xarakterli cinayət əməlləri törətmiş, korrupsiya faktlarına görə hüquqi məsuliyyətə cəlb olunaraq həbs edilənlər azadlığa çıxdıqdan sonra öz səhvlərini dərk edib cəmiyyətə yararlı olmaq yolunu seçmək əvəzinə, yenidən hakimiyyətə və dövlətə qarşı ittihamlarla çıxış edirlər. Onların əfv Sərəncamının üzərinə kölgə salmağa, ictimai rəyi çaşdırmağa çalışırlar. Korrupsiya əməlləri cəmiyyətə yaxşı məlum olan keçmiş səhiyyə naziri onun azad edilməsinin guya xarici təsirlər nəticəsində olduğuna dair absurd iddialar səsləndirir. Hər kəsə, eləcə də həmin adamın özünə də yaxşı məlumdur ki, Azərbaycan heç bir qüvvənin diktəsi ilə hərəkət etmir, tam müstəqil siyasət həyata keçirir, hər hansı bir təsir və təzyiqə qətiyyən imkan vermir. Respublikamız öz msstəqil inkişaf yolunda irəliləyir, ölkəmizin daxili, xarici siyasəti suverenlik prinsipinə əsaslanır və milli maraqlara xidmət edir. Ona görə də hər hansı bir təzyiqdən söhbət gedə bilməz. Həmin adama sual vermək lazımdır ki, əgər həmin qərar xarici qüvvələrin təsiri ilə qəbul olunubsa, bu, sözügedən şəxsin cəzaçəkmə müddətində nə üçün olmayıb? Bu, birmənalı şəkildə Prezident İlham Əliyevin humanist təşəbbüsüdür və onun üzərinə kölgə salmaq mümkün deyil. Ümumiyyətlə, bəzi adamların iddiaları ilə müddəaları üst-üstə düşmür, tərs mütənasiblik təşkil edir. Onlar öz şəxsi maraqlarını və anti-Azərbaycan dairələrin mənafelərini Azərbaycanın milli maraqlarından üstün tuturlar. Bu, bütün hallarda yolverilməzdir. Sağlam siyasi qüvvələr, eləcə də cəmiyyətin avanqard siyasi qüvvəsi olan Yeni Azərbaycan Partiyası daim milli maraqları üstün tutur, Azərbaycanın inkişafına və qüdrətinin daha da artmasına xidmət edən addımların təqdirəlayiq olduğunu birmənalı şəkildə və qətiyyətlə ifadə edir.

# Mənəvi dəyərlərimizin əbədiyaşarlıq rəmzi - NOVRUZ bayramı

*İlham Əliyev: "Yaz bayramının bu gün əsl ümumxalq bayramı mahiyyəti qazanması dövlət müstəqilliyimizin nailiyyətlərindəndir"*

***Dövlətin milli-mənəvi dəyərlərimizə olan münasibəti onun prioritet istiqamələrindəndir. Müstəqil Azərbaycan dövlətinin mədəniyyət siyasəti, islami dəyərlərə yeni prizmadan baxış kimi meyilləri ictimai düşüncənin formalaşmasında özünü göstərir. Bu amillər zaman-məkan kontekstində həllini tapmaqdadır. Dünyada gedən qloballaşma və inteqrasiya prosesində ölkəmiz uğurlu gələcəyi təmin etmək üçün tarixi köklərimizə söykənir. Azərbaycan Prezidenti İlham Əliyevin apardığı məqsədyönlü siyasəti və xalqa göstərdiyi yüksək diqqət və qayğısı Azərbaycanın milli-mənəvi dəyərlərinin qorunması və beynəlxalq səviyyədə təbliği məqsədinə istiqamətlənmişdir.***




Xalqın etnik tarixi inkişafı bir çox maddi və mənəvi amillərlə tənzimlənən mürəkkəb bir prosesdir. Son illərdə Azərbaycanın milli-mənəvi mədəniyyətinin tarixi mənzərəsinə nəzər salaraq, onun əsas inkişaf vasitələrini üzə çıxarmağa çalışsaq, hər şeydən əvvəl, mövcud amillərin rol oynadığını görərik. Dünyada milli-mənəvi dəyərləri ilə tanınan Azərbaycan xalqı yaşatdığı və təbliğ etdiyi bəşəri ideyaları, adət-ənənələri, milli xüsusiyyətləri ilə özünəməxsus yer tutub. Uzun illər aparılan tədqiqatlar zamanı aydın olub ki, qədim köklərə malik Azərbaycan əsrlər boyu maddi və mənəvi xəzinəsini qoruyub-saxlaya bilmişdir. Bu zəngin irsdə xalqın soykökünə bağlı olan adət-ənənələr yaşayaraq, əsrimizə və yeni yüzilliyə qədər gəlib çatmışdır. Xalqın toy-büsat mərasimi, bayram adət-ənənələri, Novruz mərasimləri və yas mərasimləri onun milli-mənəvi dəyərlərini özündə yaşadır.

## "...NOVRUZ BAYRAMI ƏCDADIMIZIN İNDİKİ NƏSİLLƏRƏ MİSİLSİZ YADİGARIDIR"

Azərbaycan Prezidenti İlham Əliyevin Novruz bayramı münasibətilə Azərbaycan xalqına təbrikində vurğuladığı kimi, "Qədim dövrlərdən bəri mənəvi həyatımızın ən dərin qatlarına nüfuz etmiş və milli-mədəni dəyərlərimizin təşəkkülündə müstəsna yer tutmuş Novruz bayramı əcdadımızın indiki nəsillərə misilsiz yadigarıdır".

Bütün həyatını Azərbaycan xalqının rifahına və çiçəklənməsinə sərf etmiş Ümummilli Liderimiz Heydər Əliyevin sovet hakimiyyəti illərində Azərbaycana birinci rəhbərliyi dövründə xalqımızın yaddaşında özünə yuva qurmuş Novruz bayramı milli-mənəvi xüsusiyyətləri və dəyərləri özündə əks etdirməklə, dövlət səviyyəsində qeyd edilmiş, bununla da, imperiyanın sərt qadağalarına baxmayaraq, milli bayramımız qorunaraq, nəsillərdən-nəsillərə ötürülməklə saxlanılmışdır. Azərbaycan xalqı müstəqillik əldə etdikdən sonra, xalqın təkidi və tələbi ilə hakimiyyətə qayıdan Ümummilli Lider Heydər Əliyevin, bilavasitə səyləri nəticəsində, Novruz bayramı dövlət bayramı elan olunmuş, Onun iştirakı ilə milli bayramımız ümumxalq şənlikləri çərçivəsində yüksək təmtəraqla qeyd edilmişdir.

Ümummilli Lider Heydər Əliyevin adət-ənənələrimizin və milli-mənəvi dəyərlərimizin qorunması sahəsində fəaliyyətini uğurla davam etdirən Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin göstərişi və tapşırığı əsasında hər il dövlət və milli bayramlarımız, xüsusilə, Novruz bayramımız ildən-ilə daha yüksək təmtəraqla qeyd edilərək, xalqımızın silinməz yaddaşında həkk olunmaqdadır. "Azərbaycan torpağında Novruz bayramı daim yad təsirlərdən uzaq tutulmuş və heç bir qüvvəyə onu insanlarımızın qəlbindən çıxarmaq imkanı verilməmişdir" deyən dövlət başçısı bildirib ki, biz onun böyük mənəvi gücü sayəsində keçmişimizin mürəkkəb dövrlərində belə nikbinliyimizi və gələcəyə inamımızı qoruyub-saxlamağı bacarmışıq: "Yaz bayramının bu gün əsl ümumxalq bayramı mahiyyəti qazanması dövlət müstəqilliyimizin nailiyyətlərindəndir".

## MİLLİ ADƏT-ƏNƏNƏLƏRİMİZİN DÜNYƏVİLİYİNİ ONA İRQİNDƏN, DİNİNDƏN ASILI OLMAYARAQ, BÜTÜN MİLLƏTLƏRİN MARAQ GÖSTƏRMƏSİ TƏSDİQLƏDİ

Ümummilli Lider Heydər Əliyevin ideyalarının qorunması və davam etdirilməsində rolu olan Heydər Əliyev Fondunun da bu istiqamətdəki məqsədyönlü fəaliyyətini qeyd etməliyik. Azərbaycanın Birinci vitse-prezidenti, Heydər Əliyev Fondunun sədri, YUNESKO və İSESKO-nun Xoşməramlı Səfiri Mehriban xanım Əliyevanın təşəbbüsü və dəstəyi ilə Azərbaycanın milli-mənəvi dəyərlərinin dünyaya inteqrasiya olunmasında böyük əhəmiyyətə malikdir. Heydər Əliyev Fondu ölkənin mədəni tərəqqisi, sivil dünya birliyinə inteqrasiyası, xalqın maddi rifahının yaxşılaşması naminə Ümummilli Liderin zəngin irsindən bəhrələnərək, bu işə xidmət edən genişmiqyaslı proqram və layihələrin reallaşmasına nail olur. Azərbaycanın məxsusi dəyərlərinin geniş təbliği, sağlam mənəvi dəyərlərin qorunması ilə bağlı planlı işlər həyata keçirir.

Mehriban xanım Əliyevanın, bilavasitə təşəbbüsü və təşkilatçılığı ilə həyata keçirilən tədbirlər ölkəmizin dünya ictimaiyyətinə tanıdılması, xalqımızın maddi-mənəvi irsinin və milli adət-ənənələrinin təbliği sayəsində atılan ciddi addımlardır. Azərbaycan xalqının milli sərvəti olan muğam və aşıq sənətindən sonra, milli adət-ənənələrimizi özündə əks etdirən və öz orijinallığı ilə seçilən Novruz bayramımız 2009-cu il sentyabrın 30-da YUNESKO tərəfindən Qeyri-Maddi Mədəni İrs Siyahısına daxil edilmiş, 2010-cu il 23 fevralda isə BMT Baş Assambleyasının 64-cü sessiyasının iclasında mart ayının 21-i "Beynəlxalq Novruz Günü" elan edilmişdir. Novruz bayramının YUNESKO-nun Qeyri-Maddi Mədəni İrs üzrə Reprezentativ Siyahısına daxil edilməsi və Beynəlxalq Novruz Günü elan edilməsi milli adət-ənələlərimizin dünyəviliyini, bəşəriliyini, ona irqindən, dinindən asılı olmayaraq, bütün millətlərin maraq göstərməsini təsdiqlədi. Bu, Azərbaycanın tarixiliyini, özünəməxsusluğunun dünyada işıqlandırılmasına və irsin bəşəriliyini ifadə edən faktor kimi ortaya qoyulması ilə səciyyələndi. Beynəlxalq çərçivədə qəbul edilən Azərbaycan milli xəzinəsi dünyanı təəccübləndirmək iqtidarındadır. "Baharın yurdumuza hər gəlişi əsrlərin yaddaşında iz qoymuş mərasimlərimizə uyğun, yüksək təntənə ilə qeyd olunur" deyən Cənab Prezident qeyd edir ki, qloballaşma dalğasının geniş vüsət aldığı və ənənəvi dəyərlərin sürəkli dəyişikliklərə məruz qaldığı bir zamanda Novruz bayramı tariximədəni irsə bağlılığımızın ifadəsinə çevrilmişdir: "Özündə insanlığa xas ali dəyərləri cəmləşdirmiş bu bayramın UNESCO tərəfindən ümumbəşəri irsin şah əsərləri sırasına daxil edilməsi hər birimiz üçün iftixar mənbəyidir".

## NOVRUZ BAYRAMI TƏBİƏTLƏ BAĞLI SU, OD, YEL, TORPAQ İLƏ BAĞLI DÖRD ƏSAS ARXAİK XÜSUSİYYƏTLƏRİ ÖZÜNDƏ SAXLAYIR

Hər il müsəlman dünyasının həvəslə qarşıladığı və yola saldığı Novruz bayramı xalqın tarixi kökünü və adət-ənənələrini özündə yaşadır. Bayramın qeyd olunmasına qədər, bildiyimiz kimi, dünyanın və insanın yaranması ilə bağlı müqəddəsləşdirilmiş Su, Od, Yel və Torpaq çərşənbələri qeyd olunurdu. Xalqın erkən düşüncəsində yaratdığı çərşənbələrlə bağlı ayin və etiqadları, adət-ənənələri yaşatmaq hər kəsin mənəvi dünyasının tələbatından irəli gəlir. Dörd Çərşənbənin qeyd olunmasının arxasında həqiqətlər dayanır. Folklorşünas alimlərin fikrincə, bu çərşənbələr insanın həyata gəlişi və həyatın canlanması ilə əlaqədardır. Novruz bayramı təbiətlə bağlı Su, Od, Yel, Torpaq ilə bağlı dörd əsas arxaik xüsusiyyətləri özündə saxlamaqla yanaşı, cəmiyyətdə humanist insani münasibətlərin məntiqini ifadə edən bəşəriliyilə seçilir.

Minilliklərin sınağından çıxaraq, bu günə gəlib çatmış Novruz bayramını hələ Azərbaycan xalqı Sasanilər dövlətinin tərkibində olduğu zaman qeyd edib. Daş dövrünə aid olan əşyalar qazıntılar zamanı əldə olunan mənəvi mədəniyyət abidələrimiz Novruz bayramının qədim tarixi olduğunu təsdiqləyən amillərdir. Azərbaycan klassikləri olan Nizami Gəncəvi, Şah İsmayıl Xətai, Əfzələddin Xaqani kimi dahilərimiz baharın gəlişini əks etdirən nümunələr yaratmışlar. Novruz bayramının yaranması tarixinə həsr olunmuş yazılardan Nizamülmülkün "Siyasətnamə"sini və Ömər Xəyyamın "Novruznamə"sini və başqalarını nümunə olaraq göstərmək mümkündür.

## "DAYANIQLI İNKİŞAF YOLUNDA CİDDİ UĞURLARA NAİL OLMUŞ AZƏRBAYCANIN İSLAHATLARIN NÖVBƏTİ MƏRHƏLƏSİNƏ QƏDƏM QOYMASI YAZ FƏSLİNİN YENİLƏŞDİRİCİ OVQATI İLƏ HƏMAHƏNG SƏSLƏŞƏRƏK, QURUB-YARATMAQ ƏZMİMİZİ ARTIRIR"

Azərbaycanın qədim, rəngarəng mənəvi dəyərləri, mədəni irsi hazırda xalqın fəxr mənbəyi və dünya mədəniyyətinə töhfəsi qismində çıxış edir. Bu sahəyə dövlət qayğısının günü-gündən artması və beynəlxalq təcrübənin tətbiqi istiqamətində görülən işlər qeyri-maddi mədəni irsin gələcəyinə nikbin baxmağa ümidləri artırır. Beynəlxalq ictimaiyyətin diqqət və maraq mərkəzində olan, Azərbaycan xalqının adət və ənənələrini, milli-ənənəvi xüsusiyyətlərini özündə əks etdirən, soydaşlarımıza və ölkə vətəndaşlarımıza sevinc bəxş edən Novruz bayramı dövlət səviyyəsində qeyd olunur. Xalqımız bu gözəl bayramı gözəl nəticələrlə, yaxşı əhval-ruhiyyə ilə qarşılayır. Ölkəmiz hərtərəfli inkişaf edir. Cənab İlham Əliyevin qeyd etdiyi kimi, dayanıqlı inkişaf yolunda ciddi uğurlara nail olmuş Azərbaycanın islahatların növbəti mərhələsinə qədəm qoyması yaz fəslinin yeniləşdirici ovqatı ilə həmahəng səsləşərək, qurub-yaratmaq əzmimizi artırır: "Həyatımızın ayrı-ayrı sahələrindəki davamlı müasirləşmə meyilləri ilə vahid axarda gerçəkləşdirilən müxtəlif layihələr ölkə vətəndaşlarının rifahının daha da yaxşılaşdırılmasına yönəlmişdir". Təbii ki, 2019-cu il də, ondan sonrakı illər də ölkəmiz üçün uğurlu olacaq.

Azərbaycan Prezidenti İlham Əliyevin bu günlərdə Novruz bayramı ərəfəsində daha bir humanist addımı - növbəti əfv Sərəncamını imzalaması insanların böyük sevincinə səbəb oldu. Bu Sərəncam Azərbaycanda demokratiya və hüquqi dövlət quruculuğunun təntənəsidir. Əfv olunmuş insanlar Novruz bayramını öz isti ocaqlarında, doğmaları ilə birgə qeyd edəcəklər.

Novruz bayramınız MÜBARƏK! Bu bayram hər bir ailəyə bol ruzi və sevinc bəxş etsin!

***Nəzakət ƏLƏDDİNQIZI***

# DSX-nin Ermənistanla sərhəddə yeni hərbi hissəsi istifadəyə verilib

***Ermənistan ilə dövlət sərhədinin Qazax və Ağstafa rayonlarının ərazisindən keçən hissəsindəki təmas xəttində xidməti-döyüş fəaliyyətinin təşkili Azərbaycan Respublikasının Prezidenti Silahlı Qüvvələrin Ali Baş Komandanı cənab İlham Əliyev tərəfindən Dövlət Sərhəd Xidmətinə həvalə edildikdən sonra bu ərazilərdə dövlət sərhədlərinin müdafiəsi və mühafizəsi infrastrukturunun yaradılması tədbirləri surətlə davam etdirir. Sərhədçilər üçün ən müasir tələblərə cavab verən sərhəd döyüş məntəqələri, digər hərbi obyektlər qısa müddət ərzində tikilərək istifadəyə verilir.***





Mart ayının 18-də Dövlət Sərhəd Xidmətinin Sərhəd Qoşunlarının “Qazax” sərhəd dəstəsinin yeni hərbi hissəsi xidməti istifadəyə verilib. Dövlət Sərhəd Xidmətindən SİA-ya verilən məlumata görə, tədbirdən əvvəl Dövlət Sərhəd Xidmətinin rəhbər heyəti Ümummilli Lider Heydər Əliyevin abidəsi önünə əklil qoymuş, qızıl gül dəstələri düzmüş, Azərbaycan Sərhəd Mühafizəsinin banisi olan Dahi Öndərə dərin hörmət və ehtiramlarını ifadə ediblər.

Hərbi hissənin açılışı münasibətilə təşkil olunmuş təntənəli mərasimdə çıxış edən Dövlət Sərhəd Xidmətinin rəisi general-polkovnik Elçin Quliyev Azərbaycan sərhədçisinin dövlətçiliyimizin və sərhədlərimizin keşiyində ayıq-sayıq dayandığını, Dövlət Sərhəd Xidmətinin bütün şəxsi heyəti üçün cənab Ali Baş Komandanın tapşırıqlarını icra etməyin böyük şərəf və yüksək məsuliyyət olduğunu bildirib, Azərbaycan Respublikasının Prezidenti Silahlı, Qüvvələrin Ali Baş Komandanı cənab İlham Əliyevin ali diqqəti sayəsində Dövlət Sərhəd Xidmətinin bütün hərbi hissə və bölmələrində şəxsi heyət üçün yüksək xidməti və məişət şəraitinin yaradılmasını qeyd edib.

Ermənistan ilə dövlət sərhədinin Qazax və Ağstafa rayonları ərazisindən keçən hissəsinin Dövlət Sərhəd Xidməti tərəfindən mühafizəyə götürülməsinin dövlət sərhədlərinin bütövlüyünün təmin edilməsinin başlanğıcı olması xüsusi vurğulan-mış, Azərbaycan sərhədçisinin Azərbaycan Respublikasının Prezidenti Silahlı Qüvvələrin Ali Baş Komandanı cənab İlham Əliyevin əmr və tapşırıqlarını böyük şərəflə icra etməyə hər zaman hazır olması bildirilmişdir.



Tədbirdə iştirak edən Qazax rayon İcra Hakimiyyətinin başçısı Rəcəb Babaşov sərhədçiləri təbrik edərək onlara şərəfli xidmətlərində uğurlar arzulamışdır. Tədbir zamanı xidmətdə yüksək nəticələr göstərmiş bir qrup hərbi qulluqçu təltif-ləndirilib.

Açılışı bildirən rəmzi lent kəsildikdən sonra hərbi hissəyə baxış keçirilmişdir. Hərbi hissədə xidməti-döyüş fəaliyyətinin yüksək səviyyədə təşkili və sərhədçilərin istirahəti üçün hər cür şərait yaradılmışdır. Yeni hərbi hissədə qərargah və ida-rəetmə bölmələri üçün binalar kompleksi, müddətli hərbi qulluqçuların kazarma bi-naları, hərbi qulluqçular və ailə üzvləri üçün xidməti mənzillər, tibb məntəqəsi, texniki təyinatlı binalar, döyüş texnikası parkı inşa olunmuş, 150 metr dərinlikdə artezian quyusu qazılıb.

Həmçinin yerli əhaliyə köməklik məqsədilə Dövlət Sərhəd Xidməti tərəfindən yeni kənd tibb məntəqəsinin inşası davam etdirilir.

Təntənəli mərasimin bədii hissəsində Dövlət Sərhəd Xidmətinin nümunəvi hərbi orkestrinin, rəqs ansamblının, vokal-instrumental qrupunun, tanınmış müğənnilərin ifaları, şəxsi heyət qarşısında çıxışları hərbi qulluqçular tərəfindən böyük rəğbətlə qarşılanıb.

Tədbirin sonunda Dövlət Sərhəd Xidmətinin rəisi general-polkovnik Elçin Quliyev və qonaqlar şəxsi heyətlə birlikdə nahar ediblər. Səfər çərçivəsində Dövlət Sərhəd Xidmətinin rəhbər heyəti düşmənlə təmas xəttində yerləşən sərhəd döyüş məntəqələrində xidməti-döyüş fəaliyyətinin vəziy-yəti ilə tanış olmuş, sərhədçi əsgərləri Novruz bayramı münasibətilə təbrik ediblər.



# Zakir Həsənov: “Şəxsi heyət Vətən qarşısında vəzifə borcunu şərəflə və vicdanla yerinə yetirir”

***Azərbaycan Respublikasının müdafiə naziri, general-polkovnik Zakir Həsənov Novruz bayramı münasibətilə Azərbaycan Ordusunun şəxsi heyətini təbrik edib.***

AZƏRTAC Müdafiə Nazirliyinin saytına istinadla xəbər verir ki, təbrik məktubunda Vətən uğrunda çətin, lakin şərəfli xidmətdə şəxsi heyətə uğurlar arzulayan nazir qeyd edib: “Təbiətin əbədi qanunları və kainatın dəyişməz nizamı ilə əlaqədar olan Novruz bayramı ənənələrinin qorunub saxlanılması milli-mənəvi dəyərlərimizə hörmət və sevginin təzahürüdür. Ümummilli liderimiz Heydər Əliyevin uzaqgörən və müdrik siyasətinin nəticəsi olaraq bu gün Novruz ümumxalq və dövlət bayramı səviyyəsində ölkəmizin hər bir bölgəsində böyük izdihamla, ruh yüksəkliyi ilə qeyd edilir.



Prezident, Silahlı Qüvvələrin Ali Baş Komandanı İlham Əliyevin yürütdüyü uğurlu siyasət nəticəsində müstəqil Azərbaycanda vətəndaş həmrəyliyi əldə olunub. Ölkəmiz dünya dövlətləri sırasında ən layiqli yerlərdən birini tutub, iqtisadiyyatımızın fasiləsiz inkişafı təmin olunub, dövlətçilik ənənələrimiz daha da möhkəmlənib.

Ölkəmizin müdafiə qüdrətinin artırılması istiqamətində atılan uğurlu addımlar hərbi qulluqçularımızın qələbə əzmini daha da möhkəmləndirir. Gündən-günə güclənən Azərbaycan Ordusunun həyata keçirdiyi əks-həmlə əməliyyatlarındakı qələbələri sayəsində işğaldan azad olunmuş torpaqlarımızda və strateji əhəmiyyətli yüksəkliklərdə bu gün Azərbaycan bayrağı vüqarla dalğalanır. Bütün bunlar son illər Ordu quruculuğu istiqamətindəki islahatlar nəticəsində qazanılan nailiyyətlərin məntiqi nəticəsidir”.

Ötən il xalqımızın və ordumuzun şəxsi heyətinin iştirakı ilə keçirilən iki möhtəşəm hərbi paradın Azərbaycanın müdafiə qabiliyyətini bir daha təsdiqlədiyini vurğulayan nazir qeyd edib: “İrimiqyaslı təlimlərdə peşəkarlığını, döyüş qabiliyyətini artıran şəxsi heyət Vətən qarşısında vəzifə borcunu şərəflə və vicdanla yerinə yetirməyə davam edir. Əminəm ki, Azərbaycan Respublikasının Konstitusiyasına, Hərbi anda və nizamnamələrə daim sadiq qalaraq döyüş və mənəvi-psixoloji hazırlığınızı gücləndirəcək, yeni qələbələr əldə etmək üçün səy və bacarıqlarınızı daha da artıracaqsınız. Respublikamızın suverenliyinin, müstəqilliyinin qorunması və ərazi bütövlüyünün bərpası uğrunda canlarından keçən şəhidlərimizin unudulmaz xatirəsini ehtiramla yad edir, onlara Tanrıdan rəhmət diləyirəm. Eyni zamanda, şəhid ailələrini və torpaqlarımızın müdafiəsi uğrunda düşmənlə savaşda sağlamlığını itirən döyüşçülərimizi, hörmətli veteranlarımızı da bayram münasibətilə təbrik edir, onlara ən xoş arzularımı çatdırıram. Bir daha hər birinizi gözəl bahar bayramı münasibətilə ürəkdən təbrik edir, möhkəm cansağlığı, uzun ömür, ailə səadəti və şərəfli xidmətinizdə yeni uğurlar arzulayıram”.

# Yohan Vadeful: “Qarabağ Ermənistan tərəfindən işğal edilmiş Azərbaycan ərazisidir”



***Almaniya Parlamentində XDİ/XSİ fraksiyası sədrinin müavini Yohan Vadeful Azərbaycanın Dağlıq Qarabağ regionunu birmənalı olaraq işğal edilmiş ərazi kimi səciyyələndirərək deyib: “Bir məsələ aydındır: Azərbaycan ərazisi Ermənistan tərəfindən qeyri-qanuni işğal edilib”.***

AZƏRTAC xəbər verir ki, Vadeful bu fikri Xocalı qırğınının 27-ci ildönümü münasibətilə Almaniya-Azərbaycan forumu, Azərbaycanın AFR-dəki səfirliyi və Almaniya Atlantik Cəmiyyəti tərəfindən Berlində təşkil edilmiş “Cənubi Qafqazda sabitlik və təhlükəsizlik: Almaniya-Azərbaycan tərəfdaşlığının perspektivləri” mövzusunda simpoziumda söyləyib. Rəsmi Bakının iqtisadiyyatın şaxələndirilməsi təşəbbüsünü yüksək qiymətləndirən Vadeful Azərbaycanı “Cənubi Qafqazda Almaniyanın ən mühüm ticarət tərəfdaşı” adlandırıb. Siyasətçi deyib: “Biz Azərbaycanı enerji təchizatının şaxələndirilməsi məsələlərində etibarlı tərəfdaş kimi qiymətləndiririk”.



“AtaBank” ASC
Azərbaycan xalqını Novruz bayramı münasibətilə təbrik edir,
xoşbəxtlik və sevinc dolu günlər arzulayır

# DSX-nin bütün hərbi hissələrində Novruz bayramı ərəfəsində silsilə tədbirlər keçirilir

***Dövlət Sərhəd Xidmətinin bütün hərbi hissə və bölmələrində insanlara yüksək əxlaqi keyfiyyətlər, xeyirxahlıq və həmrəylik hissləri aşılayan, xalqımızın mənəvi dünyasının ayrılmaz hissəsi olan Novruz bayramı ərəfəsində silsilə tədbirlər keçirilir.***

DSX-dan SİA-ya verilən məlumata görə, bu tədbirlər çərçivəsində mart ayının 15-də Dövlət Sərhəd Xidmətinin, Gənclər və İdman Nazirliyinin, Həmkarlar İttifaqları Konfederasiyasının və Əli bəy Hüseynzadə adına Azərbaycan Dövlət Mədəniyyət və İncəsənət Universitetinin birgə təşkilatçılığı ilə DSX-nin Sahil Mühafizəsində və Horadiz sərhəd dəstəsində bayram tədbirləri keçirilmişdir. Keçirilən tədbirlərdə Novruz bayramının dövlət səviyyəsində qeyd edilməsinin milli ənənələrimizin himayədarı olan Ümummilli Lider Heydər Əliyevin adı ilə bağlı olmasından, Dahi Öndərin təməlini qoyduğu inkişaf strategiyasının Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyev tərəfindən uğurla həyata keçirilməsindən, dinamik iqtisadi inkişafın təmin olunması sayəsində xalqımızın sosial rifahının durmadan artmasından, ölkəmizin sərhəd təhlükəsizliyinin ən yüksək tələblər səviyyəsində təmin edilməsindən, Vətənimizin sərhədlərinin etibarlı mühafizəsinin təşkili istiqamətində əldə edilmiş nailiyyətlərdən ətraflı danışılıb.





Tədbirlərdə çıxış edən sərhədçilər Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin Ali Baş Komandanlığı altında azərbaycançılığın beşiyi olan müstəqil Azərbaycan Respublikasının dövlət sərhədlərini qorumaqdan şərəf və qürur duyduqlarını bildirərək ölkəmizin ərazi bütövlüyünün bərpası, işğal altında olan torpaqlarımızda Azərbaycanın suveren hüquqlarının təmin edilməsi və həmin ərazilərdə dövlət sərhədlərinin mühafizəsinin Azərbaycanın dövlət bayrağı altında təşkil ediləcəyinə əminlik ifadə ediblər.

Bayram münasibətilə hərbi qulluqçular və onların ailə üzvləri üçün təşkil olunmuş tədbirlərdə Respublikamızın mədəniyyət və incəsənət xadimləri, tələbələr maraqlı bədii konsert proqramları ilə çıxış etmiş, qonaqlar hərbi hissələrdə yaradılmış şəraitlə yaxından tanış olmuş, xidmətdə fərqlənmiş hərbi qulluqçulara qiymətli hədiyyələr təqdim edilib.







# Naxçıvanda Novruz yarmarkası açılıb

***Naxçıvan şəhərindəki Mərkəzi bazarda Novruz bayramı münasibətilə yarmarka təşkil olunub. AZƏRTAC-ın Naxçıvan bürosu xəbər verir ki, yarmarkaya muxtar respublikada fəaliyyət göstərən 32 istehsal müəssisəsi tərəfindən 117 adda 195 çeşiddə məhsul çıxarılıb. Eyni zamanda, 262 ailə təsərrüfatı subyekti tərəfindən 168 adda məhsulun satışı təşkil olunub. Yarmarkada həmsöhbət olduğumuz Naxçıvan şəhər sakini Pərvanə Quliyeva deyib: "Bayram üçün almaq istədiyi məhsulların hamısına burada rast gəlmək olar. Qiymətlər də münasibdir. Sevindirici haldır ki, belə keyfiyyətli məhsulların hamısı yerli istehsaldır. Builki Novruz bayramında da süfrələrimizi öz məhsullarımız bəzəyəcək".***

Digər həmsöhbətimiz Şərur rayonunun Cəlilkənd sakini, 27 yaşlı ailə təsərrüfatçısı Sənan Qasımzadə yarmarkaya mürəbbələr, turşular, müxtəlif çeşiddə məhsullar çıxarıb. O, gətirdiyi məhsullara alıcılar tərəfindən böyük maraq göstərildiyini deyir. Bir-birindən ləziz görünən, səliqə ilə qablaşdırılmış şirniyyatları piştaxta üzərinə düzən Sədərək rayon sakini 19 yaşlı gənc təsərrüfatçı Jalə Abbasova bildirib ki, bayram yarmarkasının təşkili həm biz torpaq mülkiyyətçilərinə, həm də alıcılara əlverişli şərait yaradır. Belə şəraitə görə dövlətimizə minnətdarlığımı bildirirəm.

Alıcılardan biri, şəhər sakini, təqaüçü-müəllim Zahirə Cəfərova dedi ki, ötən illə müqayisədə qiymətlərdə artım yoxdur. Bazarda təklifi artırmaqla və tələbi daha dolğun ödəməklə qiymətlərin aşağı salınmasına nail olunub. Daha doğrusu, qiymətlər bazarlarda yaradılan bolluğa uyğun formalaşıb. Qeyd edək ki, şəhər əhalisinin kənd təsərrüfatı və ərzaq məhsullarına olan tələbatının daha dolğun ödənilməsi, istehlakçıların seçim imkanlarının artırılması, süni qiymət artımının qarşısının alınması məqsədilə Naxçıvan şəhərindəki Mərkəzi bazarda Novruz bayramı münasibətilə keçirilən bayram yarmarkası mart ayının 24-dək davam edəcək.

# Daşkəsəndə Novruz bayramı böyük təntənə ilə keçirilib

Dünən Daşkəsən rayonunda Heydər Əliyev Meydanında Novruz bayramı minlərlə rayon sakininin iştirakı ilə yüksək səviyyədə keçirilib. Daşkəsən rayon icra hakimiyyətinin başçısı Əhəd Abıyev Bahar qızı və Dədə Qorqudun müşayiəti ilə əvvəlcə bayram tonqalını yandırıb. Daha sonra icra hakimiyyətinin başçısı rayon camaatını təbrik edib. Sonra el sənəti və milli mətbəximizin nümunələrinə baxış keçirilib.





Yüksək təmtəraqla keçirilən ümumrayon şənliyi el aşıqlarının, musiqiçilərin ifaları, idmançıların müxtəlif idman nömrələri və rəngarəng əyləncəli proqramlar ilə yadda qalıb.

Ümumrayon bayram şənliyi rayon ərazisində yerləşən ən müasir tipli "N" saylı hərbi hissədə əsgər və zabitlərlə birgə davam etdirilib.

Tədbirdə Daşkəsən rayon icra hakimiyyətinin başçısı Əhəd Abıyev çıxış edərək hərbi hissənin zabit, gizir və əsgərlərinə Novruz bayramı münasibətilə təbriklərini çatdırıb. Tədbirdə digər çıxış edənlər də Novruz bayramı münasibətilə hərbi hissənin şəxsi heyətinə can sağlığı arzulayıb, onlara Vətənə sədaqətlə xidmət etməyi tövsiyə ediblər.

Rayon ictimaiyyətinin təşəbbüsü və təşkilatçılığı ilə gətirilən bayram sovqatı və xonçalar əsgərlərə paylanıb.

Tədbir bayram konserti ilə davam edib.

**RƏFİQƏ HÜSEYNOVA**

# Novruz bayramı ilə əlaqədar Qaradağ rayonunda tədbir keçirilib



Xalqımızın əziz bayramlarından olan Novruz bayramı Azərbaycanda çox böyük təmtəraqla keçirilir. Bu işlər paytaxtımızın Qaradağ rayonunda da geniş şəkildə qeyd olunur. Belə ki, Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin təşəbbüsü ilə yaradılan "Qaradağ rayonunun sosial-iqtisadi inkişafına yardım Fondu" və "Heydər Əliyev Fondu" tərəfindən rayonda yaşayan şəhid, əlil, veteran, kimsəsiz, aztəminatlı ailələr və məcburi köçkünlərə qayğı diqqət mərkəzində saxlanılır.

Dünən Novruz bayramı ərəfəsində Qaradağ rayon icra hakimiyyəti başçısı Süleyman Mikayılov, ənənəvi olaraq, rayonun aztəminatlı ailələri ilə görüşüb. S.Mikayılov tədbir iştirakçılarını bayram münasibəti ilə təbrik edib və ölkəmizdə son 15 ildə əldə olunan uğurlardan, Novruz bayramı ərəfəsi dövlət başçısının imzaladığı Əfv Sərəncamından, həyata keçirilən uğurlu islahatlardan danışıb. Bildirib ki, ölkə Prezidenti bu qətiyyətli addımı ilə bir daha təsdiqlədi ki, Azərbaycanda insan hüquq və azadlıqlarının müdafiəsi dövlətin daim diqqət mərkəzində saxladığı zəruri məsələlərdir.

Tədbirdə çıxış edənlər dövlət tərəfindən onlara göstərilən qaycı və diqqətə görə ölkə başçısı İlham Əliyevə öz minnətdarlıqlarını bildiriblər.

Sonda Novruz bayramı ilə əlaqədar rayon icra hakimiyyətinin təşkilatçılığı ilə hazırlanmış ərzaq bağlamaları, ilk növbədə, yardıma ehtiyacı olan ailələrə - şəhid, əlil, ərazidə yerləşən yataqxanada kompakt məskunlaşmış məcburi köçkün ailələri, tənha, kimsəsiz və digər aztəminatlı ailələrə paylanılıb.

**R.HÜSEYNOVA**

# "Yardım et" kampaniyası

*YAP Xaçmaz rayon təşkilatının təşkilatçılığı ilə Novruz bayramı ilə bağlı tədbirlər keçirilib*

YAP Xaçmaz rayon təşkilatının və Heydər Əliyev Mərkəzinin təşkilatçılığı ilə Novruz bayramı ilə əlaqədar "Yardım et" kampaniyası həyata keçirilib. Bu kampaniya çərçivəsində bir qrup şəhid ailəsi, müharibə əlili, xəstə və imkansız ailələrə, ənənəvi olaraq, bayram sovqatı verməklə onlara mənəvi və maddi köməklik göstərilib.



**R.HÜSEYNOVA**

# Ağcabədidə Novruz bayramı münasibətilə tədbir keçirilib

Dünən Ağcabədi şəhər Üzeyir Hacıbəyli adına Qarabağ Muğam Mərkəzində YAP Ağcabədi rayon təşkilatı qadınlar şurası və Gənclər üçün Təhsil Mərkəzi Qarabağ Regional Ofisi nəzdində fəaliyyət göstərən "İnklüziv Təhsil və Uşaq İnkişaf Mərkəzi" təşkilatçılığı ilə xüsusi qayğıya ehtiyacı olan və aztəminatlı ailələrin uşaqları üçün Novruz bayramı münasibətilə tədbir keçirilib.



Tədbiri YAP Ağcabədi rayon təşkilatı qadınlar şurasının sədri, GTM Qarabağ Ofisinin rəhbəri Radə Telmanqızı açaraq, tədbir iştirakçılarını bayram münasibəti ilə təbrik edib. Bildirib ki, tarixi qədim olan Novruz bayramı hər il xalqımız tərəfindən böyük təntənə ilə qeyd edilir: "Əsrlərin sınağından çıxmış mənəvi dəyərlərimizi, adət-ənənələrimizi özündə yaşadan Novruz insanlar arasında birliyin və mehribanlığın möhkəmləndirilməsi, onların bir-birinə mərhəmət və diqqət göstərməsi kimi sağlam bir təməl yaratmışdır. Novruz başdan-başa ruh yüksəkliyi, əmək coşğunluğu, torpağa, insana məhəbbət bayramıdır". Eyni zamanda, qeyd edib ki, Azərbaycan xalqının Ümummilli Lideri Heydər Əliyev milli-mənəvi dəyərlərimizə həmişə böyük hörmətlə yanaşıb, adət-ənənələrimizin qorunub-saxlanmasına daim diqqət və qayğı göstərib. Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin rəhbərliyi ilə ölkəmiz müstəqillik və demokratiya yolu ilə inamla addımlayaraq, bütün sahələrdə geniş islahatlar proqramını həyata keçirir, dünya birliyinə uğurla inteqrasiya edir. Azərbaycan Respublikasının Birinci vitse-prezidenti Mehriban xanım Əliyeva xalqımızın milli varlığını özündə yaşadan maddi-mənəvi və intellektual irsə böyük həssaslıqla yanaşır, mədəniyyətimizin dünyada təbliğində böyük işlər görür.

Tədbirdə Qarabağ Muğam Mərkəzinin direktoru Tofiq Cəfərov, 8 saylı Körpələr Evi-Uşaq Bağçasının müdiri Əsmər Şərifova və digər çıxış edənlər də, Novruz bayramı münasibətilə uşaqları təbrik ediblər.

Tədbirdə Kosa və Keçəlin gəlişi, "İnklüziv Təhsil və Uşaq İnkişaf Mərkəzi"nin balaca fidanlarının ifasında Novruz adət-ənənələrindən ibarət çıxışı və təqdim edilən musiqi, səhnə, rəqs nömrələri tədbir iştirakçılarında xoş ovqat yaratdı.

**ZÜMRÜD BAYRAMOVA**

## Bahar gəlir!



Elimə, obama yaz, bahar gəlir,
Torpağın bağrını çiçəklər dəlir.
Ağaclar durmadan hey yaşıllaşır,
Təbiət oyanıb tez cavanlaşır.

Al-əlvan geyinir meşə, dağ-dərə,
Bahar qonaq gəlir bizim ellərə.
Günəşin şüası əridib qarı,
Qoşulur çaylarda coşan sellərə.

Gül açır çöl-çəmən, boyanır min rəng,
Sinədə çırpınır, döyünür ürək.
Quşlar qanad çalır, sanki oyanır,
Baxdıqca şairin qanı qaynayır.

Torpaq yetirdisə bolluca bəhər,
Yorulmaz zəhmətlə işləyən əllər.
Gün o gün olsun ki, gəlsin şad xəbər,
Bu gözəl baharda biz çalaq zəfər.

***Tural Coşqun***

## Builki Novruz festivalı yeni konseptdə təqdim olunacaq

Dövlət Turizm Agentliyinin və Azərbaycan Turizm Bürosunun dəstəyi, Bakı Turizm İnformasiya Mərkəzinin təşkilatçılığı ilə bu gündən başlayaraq start götürəcək Novruz şənlikləri 20 gün davam edəcək. Dövlət Turizm Agentliyindən AZƏRTAC-a bildirilib ki, Azərbaycanın tarixi ənənələrinin və mədəniyyətinin xarici turistlərə çatdırılması, şəhər sakinlərinin və qonaqların bayram günlərində asudə vaxtının maraqlı və səmərəli keçirilməsi məqsədilə təşkil olunan festival "Sahil bağı"nda martın 24-dək keçiriləcək.

Festival ərazisi Novruz elementləri və dörd çərşənbəyə müvafiq təbiət rəmzlərinə uyğun dekorasiya edilərək, tematik olaraq bir neçə hissəyə bölünəcək. Festival zonası hər gün saat 11-dən 21:00-dək, xüsusi bayram proqramının təşkil olunacağı 19, 20 və 21 martı əhatə edəcək bayram günlərində isə 23:00-dək ziyarətçilərə açıq olacaq.

Şənliklər ərzində dulusçu, xalçaçı, papaqçı, xarrat, kuklaçı, zərgər kimi sənətkarların əl işləri nümayiş etdiriləcək, ustad dərsləri keçiriləcək, həmçinin həmin məhsulların satışı üçün yarmarka təşkil olunacaq. Festival boyunca məşhur kulinarlar tərəfindən milli mətbəx nümunələri hazırlanacaq, animatorlar çıxış edəcək, əyləncəli və musiqili proqramlar qonaqlara təqdim olunacaq.

# Satqın “azərbaycanlılar” ermənilərlə iş birliyində!

*Onlar jurnalist Fuad Abbasovun Rusiyadan deportasiyası üçün ermənilərlə birgə dəyirmi masa keçiriblər*

***Dəqiqləşdirilən məlumata görə, Moskvada “azərbaycanlı”-erməni dəyirmi masası keçirilib. Bu barədə “qhtxeber” saytının baş redaktoru Sənan Nəcəfov yazır. Məqsəd, jurnalist Fuad Abbasovun Rusiyadan deportasiyasına nail olmaqdır.***



Xatırladaq ki, məhz ermənilərin məkrli planlarına görə, onlar azərbaycanlılarla çeçen xalqı arasında süni münaqişə yaradaraq, xalqlarımızı qarşı-qarşıya qoymağa cəhdlər göstərmişdilər. Məhz həmin cəhdlərin puça çıxmasının əsas səbəbkarlarından biri və Rusiyada yaşayan çeçen diasporunu azərbaycanlı iş adamları və diaspora nümayəndələri ilə görüşdürən, xalqlarımız arasında barışığa nail olan Fuad Abbasov olub.

### AzərMOS və AzərRos...

Ermənilərin və onlarla əlbir olan dırnaqarası azərbaycanlıların narahat olmalarına daha bir səbəb isə, “Azərbaycan Milli Mədəni Muxtariyyətinin Moskva regional bölməsi”nin sədri Ağadadaş Kərimovun adı ilə bağlıdır. Belə ki, o öz doğma qızını erməniyə ərə verib.

Xatırladaq ki, həmin ərəfələrdə Moskvanın “Prezident” otelində baş tutan görüşdə çağırılmamış qonaq olan Ağadadaş Kərimov Fuad Abbasova ona ünvanladığı sualları cavabsız qoyub. Azərbaycanlı jurnalistin sözlərinə görə, A. Kərimov tədbirdə ermənilərin mövqeyini qorumağa çalışıb: “Biz bilirik ki, Ağadadaş Kərimovun həyat yoldaşı ermənidir, qızını da erməniyə ərə verib. Bəlkə də evində də erməni dilində danışır. Bu, onun şəxsi işidir. Amma Moskva azərbaycanlılarına Kərimovun rəhbərlik etməsinə hamımız birlikdə qarşı çıxmalıyıq. Onun vəzifəsindən azad edilməsi üçün hüquqi prosedurlar başlamalıdır”.

Lakin ermənilər və onlarla əlbir olan, eləcə də, azərbaycanlı adını daşımağa layiq olmayan “azərbaycanlılar”, necə deyərlər, zirək tərpəniblər. Belə ki, Moskvada yerləşən azərbaycanlıların iki diaspor təşkilatı - Moskvada Rusiya Azərbaycanlılarının Milli-Mədəni Muxtariyyatı (AzərMos) və Rusiya Azərbaycanlılarının Milli-Mədəni Muxtariyyatı (AzerRos) 2019-cu il martın 12-də Moskvada erməni təşkilatlarının nümayəndələrinin iştirakı ilə Moskva Millətləri Evində toplantı keçiriblər. İclas iştirakçıları “Misra” TV jurnalisti Fuad Abbasovun həbs edilməsi və deportasiyası haqqında Rusiya Federasiyasının muvafiq orqanlarına müraciət ünvanlayıblar.

### Böyük xəyanət!

İclasda iştirak edən erməni hüquqşunas və diaspora fəalı, iki erməni teatrının təsisçisi, Manuk Şamirov da çıxış edərək bilirib ki, “Artıq Abbasovla bağlı şikayətləri və onun deportasiyasıyla bağlı müraciətləri müxtəlif Rusiya dövlət qurumlarına (təhlükəsizlik, immiqrasiya siyasəti və s.) göndərib. Məni qəzəbləndirən əsas amil isə Abbasovla bağlı müraciətlərə Rusiya dövlət qurumları heç bir cavab vermirlər. Abbasov və Azərbaycan kəşfiyyatçısı İbad Hüseynovun Moskvada görüşü yadımdadır. Bu, o Hüseynovdur ki, Monte Melkonyanın başını kəsdiyini iddia edir. Abbasov bu adamla nə səbəbə Moskvada görüşüb? Həmçinin, Abbasov bir müddət əvvəl, ermənilərin birgə keçirdikləri tədbirləri qanunsuz yolla öz adamları tərəfindən pozub. Rusiya hüquq-muhafizə orqanları bu əməllərə nə üçün reaksiya vermirlər?”

Dəyirmi masaya dəvət olunmuş Levon Albertoviç Mukanyan (Rusiya-Erməni İttifaqının vitse-prezidenti), Abbasovun idarə etdiyi üç azərbaycanlının 2016-cı il noyabrın 4-də Moskvada Qarabağ erməniləri, ermənistanlılar, türklər və azərbaycanlıların öz dövlətlərinin bayraqlarıyla keçirdikləri yürüşü qanunsuz yolla dayandırdıqlarını bildirib. M.Mukanyan çıxışının sonunda Rusiya hakimiyyət orqanlarından F.Abbasovun fəaliyyətinə hüquqi qiymət verməsini tələb edib.

Qeyd edək ki, toplantıdan sonra Kərimov və Sadıxova arasında ciddi mübahisə baş verib. Mübahisəyə səbəb də, məhz iclasda ermənilərin iştirakı olub.

Məlumatda bildirilir: “Göründüyü üzrə Rusiyada azərbaycanlıların əsas diaspora qurumları hesab edilən AzerRos və AzerMos vətənə xəyanətə davam edirlər. Onlar bir qrup erməni lobbiçini başlarına yığıb, bir azərbaycanlı jurnalistə qarşı mübarizə aparırlar. Sapı özümüzdən olan baltalara qarşı fəal mübarizə aparan F.Abbasovu bütün azərbaycanlılar müdafiə etməlidirlər. Ən azından, ona görə ki, o, dəyirmi masada iştirak edən erməni nümayəndələrin sözləriylə desək, ermənilərə “problemlər yaradır və onların təbliğat kampaniyalarına mane olur”. Doğrudan da Rusiya kimi Dağlıq Qarabağ probleminin həllində spesifik təsiri olan bir ölkədə bizim diaspora qurumlarımız vətənpərvər olduğuna görə bir azərbaycanlı jurnalisti - F.Abbasovu Rusiyadan deportasiya etdirmək, hətta həbs etdirməyə çalışırlar. Nizami Rəmzi demişkən, “Qeyrətin namusun pula satanlar, vətənə xaindir, düşmənlərə yar”...

***Rövşən NURƏDDİNOĞLU***

# Avtomobillərdən oğurluq etməkdə şübhəli bilinən şəxslər yaxalanıblar



Bakı şəhər sakini V.Mahmudovun “Mercedes” markalı avtomobilindən 200 manat və gödəkcə oğurlamaqda şübhəli bilinən paytaxt sakini N.Cəfərov Yasamal Rayon Polis İdarəsinin 27-ci polis bölməsi əməkdaşlarının keçirdikləri əməliyyat tədbirləri nəticəsində saxlanılıb. Daxili İşlər Nazirliyinin mətbuat xidmətindən AZƏRTAC-a bildiriblər ki, Binəqədi Rayon Polis İdarəsinin 7-ci polis bölməsi əməkdaşları E.Ağazadənin “BMW” markalı avtomobilindən noutbuk və sənəd oğurlamaqda şübhəli bilinən Şəmkir rayon sakini S.Pənahovu saxlayıblar. Hər iki faktla bağlı araşdırma aparılır.

# Əli Kərimli - avantüraçı, satqın və milli xəyanətkar

*İctimaiyyət və sağlam düşüncəli insanlar anti-dövlətçilik çıxışlarına görə hər kəs cəzasını çəkməlidir*

***Bu gün ölkə rəhbərinin verdiyi böyük Əfv Sərəncamından sonra azadlığa çıxan məhbusların dövlət başçısının humanizm prinsipindən çıxış etməsini və doğmalarına qovuşaraq əziz bayram günü sevinclərinin birə yüz qat artığını söyləyərək, ölkə Prezidentinə təşəkkürlərini bildiriblər.***



### Emin Milli: “Əli Kərimli kimi avantüraçılarla bir olduğumdan peşimançılıq çəkirəm”

Bəli, dövlət başçımızın bu böyük Əfv Sərəncamı çoxlarını haqq yoluna qaytaracaq. AXCP sədri Əli Kərimlinin özünün “Facebook” səhifəsində “siyasi məhbusların bir qrupunun azadlığa çıxsa da, bir qisminin bayram ərəfəsi azadlığa çıxmaması bizi kədərləndirir” yazması artıq radikal müxalifət daxilində çaxnaşma yaradıb. Belə ki, xaricdən yayımlanan “Meydan” TV-nin rəhbəri, bloger Emin Milli Prezident İlham Əliyevə Əfv Sərəncamına görə təşəkkür etdiyini özünün Facebook səhifəsində yazıb: “Prezident İlham Əliyevə bu gün xüsusi təşəkkürümü bildirmək istəyirəm və dövlət başçısının bu addımı özünün cəsarətli qərarıdır. Çox istəyərdim ki, Azərbaycana qayıdım və Prezident İlham Əliyevdən belə real islahatlar haqqında “Meydan” TV-də canlı müsahibə alım”. E.Milli onu da vurğulayıb ki, Prezident İlham Əliyev dünyada çox pozitiv, güclü, qorxmaz və maraqlı bir lider kimi böyük rəğbət qazanıb və artıq görürük ki, bütün Azərbaycanı irəliyə aparır. Və hakimiyyətinin 16-cı ilində baş verən bu dəyişikliklər Onun hakimiyyətinin daha da möhkəmləyəcəyini sübut edir.

Bəli, budur reallığın müsbət nəticəsi. Haqq nazilər, amma üzülməz. Ancaq görünür, Ə.Kərimli kimi xəyanətkar parazitləri heç qəbir də düzəldə bilməyəcək. Çünki kifayət qədər faktlara əsaslanan amillər də bunu sübut edir. Ə.Kərimlinin fəaliyyəti və irəli sürdüyü iddialar ermənilərin Azərbaycana qarşı həyata keçirdiyi informasiya müharibəsinin başlıca istiqamətləri ilə tam şəkildə üst-üstə düşür. Artıq bu, bir aksiomaya çevrilib. Sadə bir fakta əsaslanaq. Aprel ayının ilk dörd günündə cəbhədə baş verən məlum hərbi əməliyyatlardan sonra ictimai rəy, məhz bu faktorun şahidinə çevrildi. Daha dəqiq desək, heç də təsadüfi deyil ki, Azərbaycanın həm cəbhə xəttində, həm də danışıqlar masası arxasında mühüm üstünlük əldə etdiyi indiki məqamda Ə.Kərimli və onun yaxın ətrafı daxildə vəziyyəti gərginləşdirməyə xidmət edən çağırışlar irəli sürməyə başladı. Əsas məqsəd ictimai rəyi yanlış istiqamətə yönəltmək, xalqın vətənpərvərlik ruhunu, xalqla hakimiyyət arasında birliyi sarsıtmaq və bununla da, dövlətimizin əldə etdiyi mühüm nailiyyətin əhəmiyyətini heçə endirmək idi. Ancaq bu, baş vermədi. Azərbaycanın şanlı və rəşadətli silahlı qüvvələri işğalçı-təcavüzkar Ermənistan ordusuna sarsıdıcı zərbə vurub, mühüm strateji yüksəkliklərə nəzarəti ələ keçirdi və Ali Baş Komandan tərəfindən qarşıya qoyulmuş vəzifələr uğurla yerinə yetirildi. Xalq bir daha Ə.Kərimlinin əsl düşmən xislətinin şahidi oldu.

Bu gün Ə.Kərimli və onun tərəfdarlarının Azərbaycanın milli maraqlarına zidd, ermənipərəst fəaliyyətinə son qoymağın vaxtı çoxdan çatıb. Satqın və xəyanətkar Ə.Kərimliyə öz yerini göstərməlidir! Ə.Kərimli kimi şəxsi ambisiyasını güdən populistlərə, avantüraçılara, antimilli ünsürlərə, bundan sonra da, meydan verməməli və onların barəsində sərt ölçü götürməlidir. O, həbs olunmalı, layiqli cəzasını almalı, ən yaxşı halda isə, ölkə hüdudlarından çıxarılmalıdır. Belələrinə Azərbaycanda yer yoxdur!

***Rəfiqə HÜSEYNOVA***

# BMT: “Dünyada iki milyarddan çox insanın içməli təmiz suya möhtacdır”



Dünyada iki milyarddan çox insanın içməli təmiz suya mütəmadi çıxışı yoxdur. Bu problem diskriminasiyaya məruz qalmış qruplar və böhran regionlarında yaşayan insanlar üçün daha kəskin şəkildə özünü büruzə verir. Bu barədə məlumat BMT-nin dünya su hesabatında yer alıb. Hesabatda qeyd edilir ki, dünyanın müxtəlif regionlarında cins, yaş, sosial-iqtisadi status və ya etnik, din və dil mənsubiyyətinə görə diskriminasiyaya məruz qalan insanların təmiz su təchizatı yarıtmaz vəziyyətdədir. Acınacaqlı vəziyyət dünyanın böhran regionlarında, xüsusilə də qaçqın düşərgələrində hökm sürür.

Hesabatda, həmçinin qeyd edilir ki, su təchizatı ilə bağlı şəhər əhalisinin vəziyyəti kənd əhalisinə nisbətdə daha yaxşıdır. Şəhərdə yaşayan əhalinin 63 faizinin mənzili kanalizasiya sisteminə qoşulub. Kənd yerlərində isə bu göstərici doqquz faizə bərabərdir. Hesabatda, həmçinin qeyd edilir ki, hazırda dünyanın 50-dən artıq ölkəsi “su stressi” yaşayır, yəni bu ölkədə yerli əhalinin təmiz su ilə təchizatı qənaətbəxş sayıla bilməz. UNESCO-nun məlumatına görə isə Avropa və Şimali Amerikada 57 milyon insanın ev və mənzillərində su boruları belə yoxdur.

# Vətəndaşların siyasi və şəxsi hüquqları

**Vətəndaşların siyasi hüquqları bütün digər hüquqların həyata keçirilməsinin zəruri şərtidir, çünki onlar demokratik sistemin üzvi əsasını təşkil edirlər və hakimiyyətin, özünü məhdudlaşdırmalı olduğu dəyərlər kimi çıxış edirlər. Dövlətin təbiətini müəyyən edən faktor, hakimiyyətə nəzarət vasitəsi, demokratik rejimin qiymətləndirici meyarı kimi çıxış edən siyasi hüquq və azadlıqlar mədəni cəmiyyətin məcburi elementləridir.**

Şəxsi hüquqlardan fərqli olaraq, siyasi hüquq və azadlıqların məqsədi insanın muxtariyyətini təmin etməkdən deyil, siyasi prosesin aktiv iştirakçısı kimi təzahür etməsini təmin etməkdən ibarətdir. Bu kateqoriya hüquqların dəyərliliyi ondan ibarətdir ki, onlar dövlət və vətəndaş arasında münasibətlərin möhkəmləndirilməsi üçün şərait yaradılmasına xidmət edirlər. Siyasi hüquq və azadlıqlara bunlar aiddir: Qanun qarşısında bərabərlik - təbəqələrin olmaması, Vicdan azadlığı hüququ - vətəndaşların istədikləri dinə etiqad etmək və ya heç bir dini qəbul etməmək hüququ. Söz və Mətbuat azadlığı - senzuraya qadağa, Sərbəst toplaşmaq azadlığı - insanların öz düşüncələrini ifadə etmək, təbliğ etmək, davam etdirmək və müdafiə etmək məqsədilə siyasi və ictimai fəallığını həyata keçirmək azadlığı. Birləşmək azadlığı - birləşmək, ittifaq qurmaq azadlığı. Tətil etmək hüququ - hər kəsin təkbaşına və ya başqaları ilə birlikdə tətil etmək hüququ vardır. Müraciət etmək hüququ - vətəndaşların dövlət orqanlarına şəxsən müraciət etmək, habelə, fərdi və kollektiv yazılı müraciətlər göndərmək hüququ vardır. Dövlətin idarə edilməsində iştirak etmək hüququ. II nəsil XX əsrin əvvəllərində Meksikanın (1917-ci il) və Rusiyanın (1918-ci il) konstitusiyalarında insan hüquqlarının ikinci nəsil - sosial-iqtisadi və mədəni hüquqlar ortaya çıxır və İkinci Dünya müharibəsindən sonra isə bu hüquqlar bir sıra beynəlxalq müqavilələrdə - Ümumdünya İnsan Hüquqları Bəyannaməsinin 22-28-ci maddələrində; 1961-ci il Avropa Sosial Xartiyasında; 1966-cı il İqtisadi, Sosial və Mədəni Hüquqlar haqqında Beynəlxalq Paktda və s.) ayrıca təsbit olunur. Burada söhbət əsas etibarilə aşağıdakı hüquqlardan gedir: işləmək hüququ; həmkarlar ittifaqı yaratmaq hüququ; tətil hüququ; sosial təminat hüququ; minimal həyat səviyyəsi hüququ; istirahət hüququ; sağlamlığın qorunması hüququ; təhsil hüququ; mədəni həyatda iştirak etmək və mədəni sətvətlərdən istifadə etmək hüququ və s. Ümumdünya İnsan Hüquqları Bəyannaməsində hər iki nəsil hüquqlar birləşdirildiyi halda, 1966-cı il Paktlarında onların ayrı sənədlərdə tənzimlənməsinin səbəbi budur ki, bu hüquqlar fərqli hüquqi rejimə tabedir və dövlətlərə gətirdiyi öhdəliklər də fərqlidir. Sosial hüquqları təmin etmənin həm ideoloji, həm də iqtisadi yönləri var: hər dövlətin şəraiti buna uyğun olmaya bilər. Mülki və siyasi hüquqlar baxımından, vəziyyətin belə bir cəhəti də vardır ki, başda SSRİ olmaqla, bəzi dövlətlərin öz vətəndaşlarına bütün bu hüquqları tanımaq niyyətləri yox idi. Bu səbəblə, bu Paktlara həm qeyd-şərt imkanları gətirildi, həm də hüquqlar ayrı-ayrı sənədlərlə tənzimləndi. Sosial-iqtisadi hüquqlar. Sosial-iqtisadi hüquqlar fərdin sosial-iqtisadi həyat şəraitinin saxlanılmasına və normativ şəkildə müəyyən edilməsinə aiddir. Bu hüquqlar insanın iş və məişət, məşğulluq, həyat səviyyəsi, sosial müdafiəsi sahəsində vəziyyətini müəyyən edir. Onların həcmi, həyata keçirilməsi səviyyəsi xeyli dərəcədə dövlətin iqtisadiyyatından və ehtiyatlarından asılıdır və buna görə də, onların həyata keçirilməsinin təminatları, siyasi hüquqlar və mülki hüquqlarla müqayisədə daha az inkişaf etmişdilər. Sosial-iqtisadi hüquqların müdafiəsi sahəsində dövlətin vəzifəsi ondan ibarətdir ki, mütərəqqi iqtisadi və sosial islahatlar həyata keçirsin, iqtisadi inkişafın proses və faydasına öz xalqının iştirakını təmin etsin, öz resurslarından hamının bu hüquqdan bərabər imkanlarla yararlanmasını təmin etməklə istifadə etsin. İqtisadi hüquqlar insana təsərrüfat fəaliyyətinin əsas faktorlarına sərbəst sərəncam vermək imkanını təmin edirlər. Sosial hüquqlar insana layiqli yaşam

## Təbii və qanuni hüquqlar

səviyyəsini və sosial müdafiəni təmin edirlər. İnsan hüquqlarının digər növlərindən fərqli olaraq sosial təminat hüquqlarının xüsusiyyətləri aşağıdakılardır: Əmək hüququ, Ailə hüququ, analıq hüququ, atalıq hüququ, uşaqlıq hüququ, Sosial təminat hüququ Mülkiyyət hüququ, Sağlamlığın qorunması və tibbi yardım hüququ, Səkkiz saatlıq iş hüququ, ədalətli iş şəraiti, dəyəri bərabər əməyə görə bərabər ödəniş hüququ. Mədəni hüquqlar. Mədəni hüquqlar insanın mənəvi inkişafına təminat verir, hər fərdə siyasi, mənəvi, sosial və mədəni tərəqqinin faydalı iştirakçısı olmağa kömək edir. Mədəni hüquqlara aşağıdakılar aiddir: Ana dilindən istifadə hüququ - Hər kəsin ana dilindən istifadə etmək hüququ vardır. Hər kəsin istədiyi dildə tərbiyə və təhsil almaq, yaradıcılıqla məşğul olmaq hüququ vardır. Təhsil almaq hüququ - Hər bir vətəndaşın təhsil almaq hüququ vardır. İncəsənət və elmlə məşğul olmaq azadlığı - Hər kəs istədiyi növ incəsənət və elmlə məşğul ola bilər. Tədris etmək azadlığı. Ekoloji hüquqlar: Əlverişli ətraf mühit hüququ, Ətraf mühitin vəziyyətinə dair etibarlı məlumatların əldə edilməsi hüququ, Ekoloji qanun pozuntuları nəticəsində sağlamlığa və ya əmlaka dəyən ziyanın ödənilməsi hüququ. III nəsil XX əsrin 80-ci illərində təsnifata üçüncü nəsil adlanan hüquqlar da əlavə olunub, bunlara kollektiv hüquqlar və həmrəylik hüquqları da deyilir. Lakin bu nəsil hüquqlar haqqında fikir birliyi yoxdur, nələrin bu kateqoriyaya daxil olduğu və bunların hüquqi rejimi mübahisəlidir. Üçüncü nəsil hüquqların yaranması son dövrün inkişaf xüsusiyyətləri ilə izah edilir. Bu izaha görə, indi obyektiv olaraq, elə hüquqlar meydana gəlmişdir ki, onlar ayrılıqda fərdə və ya fərdlər qrupuna yox, bütövlükdə, məcmuya, xalqa məxsusdur: məsələn, inkişaf hüququ; sülh hüququ; sağlam ətraf mühitdə yaşamaq hüququ və s. Lakin göstərilən hüquqlar tam formalaşmamışdır və onlar dəqiq normativ məzmuna malik deyldir. Üçüncü nəsil hüquqlarla bağlı hər hansı beynəlxalq sənəd mövcud deyil. Bunun səbəbi həmrəylik hüquqları haqqında tam bir hüquqi və siyasi uzlaşmanın olmaması ilə izah edilir. Mülki və siyasi hüquqların digər adı, təbii hüquqlardır. Belə adlanma anqlo-sakson hüququndan irəli gələn bir ənənədir. Təbii hüquqlar, mahiyyəti etibarilə universal hüquqlardır: onlar insan əxlaqından ayrılmazdır və davranış və ya inanclara bağlı deyil. Təbii hüquqlar təbii hüquq məktəbinin bir məhsuludur. Bilindiyi kimi, təbii hüquq məktəbi, liberalizm axınının öncüsü və ilhamçısı olmuşdur. Avropada təbii hüquq məktəbinin tərəfdarları, Tomas Akvinat başda olmaqla, hüququn mənbəyini Allahda görürlər. Bu məktəbin sekular (dünyəvi) tərəfdarları isə, təbii hüququn mənbəyini təbiətdə görürlər. Təbii hüquq anlayışını qanuni hüquq anlayışı ilə müqayisə etmək mümkündür. Qanuni hüquq dövlət, ya da cəmiyyət tərəfindən vətəndaşların mənfəəti üçün yaradılır. Halbuki təbii hüquqlar, dövlətin tanıyıb-tanımamasından asılı olmayaraq özözünə var olan bir hüquqdur. Birinci nəsil hüquqların əhəmiyyəti ondan ibarətdir ki, bunlar insanın əsas, ayrılmaz və ən vacib hüquqlarını təşkil edir. Qanuni hüquqlara isə ikinci nəsil insan hüquqlarını, yəni iqtisadi və sosial hüquqları aid etmək olar. Fransız inqilabının məhsulu olan 1789-cu il tarixli İnsan və Vətəndaş Hüquqları Bəyannaməsində də təbii hüquqlar tənzimlənmişdir. Təbii hüquqlara misal kimi, ilk növbədə, yaşamaq və azadlıq hüququnu göstərmək olar. Mülkiyyət hüququnu da Con Lokk kimi alimlər təbii hüquqlar arasında görüb, Tomas Cefferson isə mülkiyyəti xoşbəxt olmanın ayrılmaz ünsürü sayıb. Russo mülkiyyəti təbii hüquq saymamaqla bərabər, Hobbs və Lokk ilə bərabər ictimai müqavilə nəzəriyyəsinin müdafiəçiləri kimi, insanların öz təbiətlərinə və ehtiyaclarına görə davranmağı təbii hüquqlardan sayıb; mütəfəkkirə görə bunlar dövlətdən əvvəl gəlir və dövlət tərəfindən bəxş edilməyib. Təbii hüquqlar anlayışının zamanla nəzərə alına bilməyən "meyvələri" ortaya çıxır. Təbii hüquqları pozan şəxslərin məsuliyyəti illər keçdikdən sonra irəli sürülür. Buna misal olaraq, 2009-cu ilin yanvar ayında İspaniya Ali Məhkəməsinin verdiyi qərarı qeyd etmək olar: İsrail hökumətinin bəzi üzvləri, müdafiə naziri Binyamin Ben-Eliezer kimi, 2002-ci ildə Qəzzada 15 mülki şəxsin ölümü və 150 nəfərin yaralanması ilə nəticələnən raket zərbələrinə görə insanlığa qarşı cinayət törətdiklərinə görə məhkum olunmuşdu. Birinci nəsil hüquqların bir digər adı da "klassik" hüquqlardır. Bu hüquqlar ona görə klassik adlandırılır ki, bunlar uğrunda mübarizə XVIII əsrin əvvəllərindən bəri daha da artmışdır. Təbii hüquqlardan başqa, elə amillər və hallar var ki, bunlar təmin edilmədən birinci nəsil hüquqların həyata keçirilməsi xeyli çətin olur. Məsələn, pulu olmayan və çox kasıb bir insan üçün hərəkət (səyahət) azadlığı böyük bir məna və əhəmiyyət kəsb etmir. Digər tərəfdən, təhsil ala bilməyən insan üçün, söz və ifadə azadlığının böyük əhəmiyyəti yoxdur. Habelə, əmək hüquqları təmin olunmayan bir insan üçün şəxsi və ailə həyatına hörmət edilmə məsələsi xəyali bir hədəfdir. Lakin ikinci nəsil hüquqların vacib xüsusiyyəti bundan ibarətdir ki, bunlar dövlət tərəfindən tanınır və mahiyyətcə ictimai olan hüquqlardır, yəni insanın cəmiyyət halında yaşamasından irəli gəlir. Bu meyarı nəzərə alaraq, bunları siyasi hüquqlarla qarışdırmaq olmaz, çünki siyasi hüquqlar hər nə qədər cəmiyyətə istiqamətlənmiş olsalar da, bunların məqsədi və səbəbi azadlıq hüququnu təmin etməkdir. İqtisadi, sosial və mədəni hüquqlar insanın cəmiyyət daxilində özünü ləyaqətli şəkildə inkişaf etdirə bilməsinə yönəlir. Bu səbəblə, ikinci nəsil hüquqları, hardasa birinci nəsil hüquqların dolayı təminatçısı kimi görmək mümkündür. Həqiqətən də, sosial və iqtisadi hüquqların elə bir minimum həddi var ki, o həddin altında həyat tərzinə məruz qalmış insan birinci nəsil hüquqlarından da faydalana bilməz. İnsan hüquqları üçün nəzərdə tutulan bir digər təsnifat, onları neqativ və pozitiv hüquqlar olaraq ikiyə bölməkdir. Burada dövlətin konkret hüquqa qarşı hansı mövqedə duracağı nəzərdə tutulur. Əvvəllər hesab olunurdu ki, birinci nəsil hüquqlar neqativ hüquqlardır, halbuki ikinci nəsil hüquqlar pozitiv hüquqlardır. Bu yanaşma tərzi bir zamanlar düzgün hesab oluna bilərdi. Lakin Avropa İnsan Hüquqları Məhkəməsinin presedent hüququ neqativ hüquqlar baxımından da dövlətin pozitiv öhdəliklərini gətirməyə başladı. Məsələn, yaşamaq hüququna hörmət edən dövlət öz məmurları tərəfindən vətəndaşın həyatına qəsd etməməlidir; bu, neqativ öhdəlikdir. Lakin əgər vətəndaş ehtimal olunan cinayətə qarşı dövlətdən qoruma tələb edirsə, dövlətin o vətəndaşı qoruma kimi bir öhdəliyi yaranır və bu da pozitiv öhdəlikdir. Ona görə, indi "neqativ-pozitiv hüquq" təsnifatından daha çox, dövlətin "neqativ ya da pozitiv öhdəliklərindən" bəhs olunur. Bununla belə, din azadlığı, azadlıq hüququ, məlumat yayma azadlığı kimi hüquqlara, hələ də sırf neqativ hüquq kimi yanaşmaq mümkündür. XX əsrdə insan hüquqları sahəsində əsas sənəd 10 dekabr 1948-ci ildə BMT tərəfindən qəbul olunmuş Ümumdünya İnsan Hüquqları Bəyannaməsi olmuşdur. Bununla əlaqədar olaraq, 1950-ci ildən başlayaraq, 10 dekabr İnsan Hüquqları Günü kimi qeyd edilir. Azərbaycanda məhkəmə sisteminin müasirləşdirilməsinə yönəlmiş mütərəqqi islahatlar çərçivəsində insan hüquqlarının müdafiəsinə xüsusi önəm verilərək, bu sahədə beynəlxalq hüquq normalarının, eləcə də, Avropa İnsan Hüquqları Məhkəməsi təcrübəsinin öyrənilməsinə və tətbiqinə mühüm diqqət yetirilir. Bu məqsədlə Məhkəmə-Hüquq Şurası və Baş Prokurorluq tərəfindən hakimlər və dövlət ittihamını müdafiə edən prokurorlar üçün təşkil olunmuş ixtisasartırma kursunda aktual mövzulara geniş yer ayrılmış, tədrisə təcrübəli mütəxəssislər, nüfuzlu beynəlxalq ekspertlər cəlb olunmuşlar. Bu günlərdə ölkəmizə dəvət edilmiş Avropa İnsan Hüquqları Məhkəməsinin hakimləri Eqbert Meyer və Xanlar Hacıyev hakimlər və prokurorlar qarşısında maraqlı mühazirələrlə ilə çıxış etmişlər.

**Vahid Ömərov,**
***fəlsəfə üzrə fəlsəfə doktoru***




*Bu yazı Azərbaycan Respublikası Prezidenti yanında Kütləvi İnformasiya Vasitələrinin İnkişafına Dövlət Dəstəyi Fondunun maliyyə dəstəyi ilə "İnsan hüquq və azadlıqlarının müdafiəsi, vətəndaşların hüquqi, siyasi mədəniyyət səviyyəsinin yüksəldilməsi, sosial və siyasi fəallığının artırılması" istiqaməti çərçivəsində hazırlanıb*

# Nankor və xəyanətkardan başqa nə isə gözləməyə dəyməzdi!

*Yaxud Əli İnsanov qeyri-insani davranaraq, Qərb və ABŞ-a niyə yalmandı?*

***Ölkə rəhbərinin verdiyi böyük Əfv Sərəncamından sonra azadlığa çıxan məhbuslar, ilk növbədə, dövlət başçısının humanizm prinsipindən çıxış edərək, onları öz ailələrinə qovuşdurduğuna, ikiqat bayram hissləri yaşatdığına görə, sonsuz təşəkkürlərini bildiriblər. O cümlədən, siyasi baxışları müxalif olan məhbuslar da, öz növbələrində, Azərbaycan dövlətinin rəhbərliyinə minnətdarlıqlarını çatdırıblar. Ümumiyyətlə, belə bir Əfv Sərəncamının verilməsi istər məhbusların və onların ailələrinin, istərsə də ölkə ictimaiyyətinin ovqatına bayram əhval-ruhiyyəsi qatdı, yalnız bir nəfərdən başqa...***

Bu bir nəfər isə, sabiq səhiyyə naziri, dövlət çevrilişinə cəhddə və s. cinayətlərdə ittiham edilərək həbs cəzası almış Ə.İnsanovdur. O, həbsdən azad olunan kimi, jurnalistlərə verdiyi brifinqdə Qərb təşkilatlarına və ABŞ rəhbərliyinə, sözün əsl mənasında, yalmandı, yaltaqlandı, törətdiyi cinayətlərinə görə əfv olunmasını dövlət başçısının şəxsi humanistliyi ilə əlaqələndirməyərək, əslində nə qədər yararsız, vicdani hisslərə malik olmayan biri olduğunu sübut etdi. Bununla, Ə.İnsanov insani xüsusiyyətlərə aid olmayan ünsürlüyünü kifayət qədər sübuta yetirmiş oldu.

## Heç bir azərbaycançılıq çərçivəsinə sığmayan kinin, küdurət göstəricisi

Daha bir diqqətçəkici məqam isə, dağıdıcı müxalifət düşərgəsində hər zaman mövcud olan və sağlam düşüncəli ictimai rəy tərəfindən hiddətlə qarşılanan bölücülük siyasətidir. Sabiq nazirin ətrafında olanların heç bir azərbaycançılıq çərçivəsinə sığmayan, bu kimi baxışlardan çıxış etmələri, əslində, kinin-küdurətin və qəddarlığın göstəricisi kimi də əlaqələndirilə bilər. Əbəs deyil ki, bir sıra tanınmış ölkə siyasətçiləri və ictimai xadimlər Ə.İnsanovun bu və ya digər fikirlərini sərt tərzdə tənqid atəşinə tutublar. Media vasitəsi ilə fikirlərini bölüşənlər sabiq səhiyyə nazirinin hakimiyyətə və hakimiyyətə dəstək verən xalqa meydan oxumasını sərt şəkildə qınayıblar.

## Əli Nağıyev: "Əli İnsanov əgər ağıl öyrənmək istəsəydi, 15 il bundan əvvəl məni dinləyərdi, daha qeyri-adamları yox!"

Yeni Azərbaycan Partiyasının qurucularından hesab edilən sabiq əmək və əhalinin sosial müdafiəsi naziri Əli Nağıyev Prezident İlham Əliyevin Əfv Sərəncamı ilə 14 ildən sonra azadlığa çıxan sabiq səhiyyə naziri Ə.İnsanovun iqtidara meydan oxuyan fikirlərinə sərt reaksiya verərək deyib ki, onun fikirlərinin hamısı səhvdir. "Əli İnsanovun son müsahibəsi zamanı söylədiyi müəyyən fikirlərin hamısı səhvdir. Ona



demək istəyirəm ki, ağrıdan doğan emosiya ilə müsbət nəticə əldə etmək mümkün deyil" deyə bildirən Ə.Nağıyev, əlavə edib ki, o, bu vasitə ilə kimsəyə ağıl öyrətmək fikrində də deyil: "Mən heç kimə ağıl öyrətmək fikrində deyiləm. Əgər Ə.İnsanov ağıl öyrənmək istəsəydi, 15 il bundan əvvəl məni dinləyərdi, daha qeyri-adamları yox! Ona görə də mən hesab edirəm ki, onun dediyi fikirlərin hamısı səhvdir".

## Fəzail Ağamalı: "Əli İnsanov Prezidentlə görüşəndə tamamilə başqa görkəm alırdı, az qala onun qarşısında baş əyirdi"

"Özünün də cilovlaya bilmədiyi emosiya ilə fikir bildirən Əli İnsanov, baxmayaraq ki, ölkə Prezidentinin lütfkarlığı, mərhəməti və imzası ilə azadlığa çıxıb, təşəkkürü Amerikaya və Avropaya istiqamətləndirdi. Guya onların təzyiqi ilə Prezident belə bir addım atıb, onu əfv edib. Bu, kökündən yanlışdır. Hətta dünyanın aparıcı dövlətlərinin liderləri də yaxşı bilirlər və qəbul edirlər ki, ölkə Prezidenti İlham Əliyevə təzyiq formasında hər hansı bir fikri çatdırmaq, onun təzyiqlə yerinə yetirməsini tələb etmək, fikrini dəyişmək mümkün deyil".

Bunu isə, əslən Qərbi Azərbaycandan olan deputat, Ana Vətən Partiyasının sədri Fəzail Ağamalı sözügedən mövzuya münasibətini bildirərkən deyib. F.Ağamalı bildirib ki, Prezidentimiz qətiyyətli, iradəli, öz müstəqil fikri olan və bu müstəqil fikrində kifayət qədər ədalətli mövqe nümayiş etdirən dövlət xadimidir, bunu bütün dünya bilir: "Ə.İnsanov da ölkə başçısı İlham Əliyevi yaxşı tanıyır və mən xatırlayıram ki, vaxtilə o, Prezidentlə görüşəndə tamamilə başqa görkəm alırdı, az qala onun qarşısında baş əyirdi. Ə.İnsanov öz əməllərinə görə həbsə düşdü, mən də arzulamazdım ki, o, həbsxanaya düşsün. Ancaq özü əməlləri ilə 2005-ci ildə "hakimiyyəti zorla ələ keçirmək layihəsi" içərisində yer alıbsa, buna görə ona heç kim "sağ ol" deməli deyildi. Cəzasını aldı, indi çıxıb. Azərbaycan müstəqil dövlətdir, demokratik ölkədir, burada hər bir vətəndaşın seçim hüququ var. Kimsə siyasi partiya yaratmaq istəyirsə, yarada bilər, kimsə hansısa siyasi partiyaya getmək istəyirsə, gedə bilər".

Qərbi azərbaycanlıların Ə.İnsanovu guya özlərinə "lider" seçməsi ilə bağlı iddialara da toxunan millət vəkili deyib ki, o, qərbi azərbaycanlıları ətrafına yığacaq potensialda deyil, ola da bilməz: "Əgər o xəyallarla yaşayırsa, o xəyalların həyata keçirilməsi üçün heç bir əsas yoxdur. Ola bilsin ki, o özünün yaxın qohumlarını, məhdud sayda tanışlarını toplayıb, bir partiya yaradar. Yaratsın görək, bu partiya hansı gücə malikdir. Ancaq birmənalı şəkildə, heç kimə mandat verilməyib ki, qərbi azərbaycanlıların adından danışsın. Bu mandat yalnız ölkə başçısına aiddir. Qərbi azərbaycanlıların əksəriyyəti bu gün Cənab Prezidentin yanındadır, Onu hər zaman dəstəkləyib və bundan sonra da dəstəkləyəcək. Buna heç kimin şübhəsi olmasın".

## Əziz Ələkbərli: "Heç kəs öz siyasi ambisiyasını həyata keçirmək üçün böyük bir bölgənin insanlarından istifadə etmək fikrinə düşməsin"

Azərbaycan Qaçqınlar Cəmiyyətinin və Qərbi Azərbaycan İcmasının sədri Əziz Ələkbərli də Ə.İnsanovla birgə fəaliyyət göstərə bilmək haqda mülahizələrə fikir bildirib. Ə.Ələkbərlinin sözlərinə görə, bu oyunların kimə və nəyə xidmət etdiyi, hansı siyasi qrup və klanların maraqlarına hesablandığı da məlumdur: "Görünür, yenə də bəlli qüvvələr yaxın zamanda üçbeş adamın üstünə atılacaq çirkabı böyük bir kəsimin üzərinə yıxaraq, öz aləmlərində nəhəng bir toplumu zərərsizləşdirib, həm siyasi proseslərin məcrasını istədikləri istiqamətə yönəltmək, həm də öz "yollarını təmizləmək" niyyətindədirlər. Qərbi Azərbaycan icması olaraq, bəyan edirik ki, həmin məkrli qüvvələrin budəfəki planları baş tutmayacaq. Heç kəs də öz siyasi ambisiyasını həyata keçirmək üçün böyük bir bölgənin insanlarından istifadə etmək fikrinə düşməsin. Əvvəl bəyan etdiyimiz kimi, bir təşkilat olaraq, biz Azərbaycanın daxili siyasi proseslərinə qarışmayacağıq, bizim əsas məqsədimiz Qərbi Azərbaycan torpaqları uğrunda mübarizədir. Bu müqəddəs yolda, səmimi olaraq, yanımızda olan hər kəs bizə dost, qarşımızda dayanan hər kəs isə dəf edilməsi bizim üçün o qədər də çətin olmayan maneədir".

"Hər hansı bir məsələ üçün kiməsə müraciət etməli olsaq, ancaq dövlətimizə və xalqımıza müraciət edə bilərik" deyən Ə.Ələkbərli, həmçinin bildirib ki, bütün tərəflərə, xüsusilə, sifariş yerinə yetirən bəlli media nümayəndələrinə səslənir: "Qurtarın Qərbi Azərbaycan masası üzərindəki oyunlarınızı! Bizi İrəvan, Göyçə, Zəngəzur, bütövlükdə, Qərbi Azərbaycan uğrunda mübarizə hədəfimizdən yayındırmağa çalışmaqla düşmən dəyirmanına su və dən tökməyin!"

Onu da xatırladaq ki, ayrıseçkilik, bölücülük salmağa çalışanlardan biri də "Xural" qəzetinin baş redaktoru Əvəz Zeynallıdır ki, o, Ə.İnsanovun ətrafında var-gəl edərək, növbəti dəfə suyu bulandırmağa cəhdlər göstərir. Ancaq unudur ki, onların bu kimi çirkin niyyətləri heç vaxt reallaşmayacaq.

***Rövşən NURƏDDİNOĞLU***

---



**Təhmasib Novruzov**

## Ölkə başçısının Novruz töhfəsindən pəjmürdə olanlara bir esse

***Qəribə insanlarıq, vallah. Ölkə başçısı heç bir ölkədə qarşılaşmadığımız, çox cəsarətli addım atır, bir Fərmanla məhbəsdə olan 430-dan çox insanı azadlığa qovuşdurur, normal həyata, ailəsinin, yaxınlarının yanına qaytarır, özü də millətin ən əziz günlərindən birində - Novruz bayramı ərəfəsində! Bəzi-bəzi özünü-sözünü bilməyənlər belə ciddi humanist addımda da nəsə xoşagəlməz bir şey - siyasi məna axtarırlar. Axtarırlar, amma tapmırlar. Tapmırlar və o zaman özlərindən elə şeylər uydurmağa başlayırlar ki, bu uydurmalar nə cəmiyyətin istəyi ilə uyuşur, nə də bu tarixi Fərmanın mahiyyəti ilə.***

Yenə babalarımızın maraqlı bir deyimini xatırlatmağa lüzum görürəm. Babalarımız deyərdi ki, qədirbilməz adama barmağının beşini də bal eliyib ağzına soxsan, çıxaranda deyəcək ki, bu, nə acı zəhərdi? Ay bizim ölkənin hüquqi vətəndaşları, demokratiya o demək deyil ki, ağa qara, yaxşıya pis, gecəyə gündüz deyəsən. Demokratiya, ilk növbədə, vicdana, ədalətə və obyektivliyə əsaslanmalıdır. Belə olmayanda, cəmiyyəti də və demokratiya deyilən indiki dünyanın ən qəbuledilən nemətini də hörmətdən salarıq. Əgər həqiqətən, demokratik dəyərlərə əsaslanan, hüquqi dövlət qurmaq və onu bu yöndə inkişaf etdirmək istəyiriksə, gərək, onu hörmətdən sala bilən, inkişafa zidd belə "ideologiyadan" imtina edək. Əks-təqdirdə, yalan, böhtan, vicdana və ədalətə əsaslanmayan belə "ideologiya" kimlərisə deyil, bütövlükdə, cəmiyyəti təhlükələrə sürükləyə bilər. Kim bilir, bəlkə də dediklərinin şər-böhtan olduğunu bilərəkdən, onu cəmiyyətə buraxanların, ya da onları bu yola sürükləyənlərin istəyi də elə budur! Belədirsə, "yazıqlar olsun" deməkdən başqa bir söz tapa bilmirəm. Ölkə başçısının indiki Əfv Fərmanı, şəxsən mənim üçün iki cəhətdən çox əhəmiyyətlidir. Birincisi, təbii olaraq, hər bir vicdanlı şəxs üçün qəbul edilən cəhətdir ki, bu da yüzlərlə insanın normal həyata qayıtması faktıdır. Bu, istənilən baxış bucağından, birmənalı tərzdə təqdir olunan haldır. Mənim və mənim kimi minlərlə insanın əfv olunanlar arasında nə bir qohumu, nə də bir yaxını var. Ancaq onların hər biri AZƏRBAYCAN adlanan ölkəmizin vətəndaşlarıdır və hər bir vətəndaşımıza qarşı atılan istənilən humanist addım, minlərlə insanlar kimi məni də sevindirməyə bilməz. Yetər ki, ölkə başçısının humanist addımına ədalətli, doğru-düzgün dəyər verilsin və həmin humanistliyin obyekti olan insanlar gələcək fəaliyyətində bu humanist qərarın məsuliyyətini anlasın. İkincisi isə, ondan ibarətdir ki, ölkə başçısı budəfəki Əfv Fərmanını xalqımızın milli bayramlarının zirvəsi olan Novruz bayramı ərəfəsində verdi. Bu fakt Prezidentin milli dəyərlərimizə verdiyi yüksək qiymətin bariz nümunəsidir və hər kəs üçün bu cəhət də, xüsusilə, önəmli hesab edilməlidir. Bu bayram ərəfəsində yüzlərlə evə sevinc bəxş etməkdən böyük Novruz hədiyyəsi təsəvvür edə bilmirəm və bunun istər dini, istərsə də mənəvi baxımdan savabı əvəzsizdir.

Xülasə, hər kəsi bu və buna bənzər digər humanist addımları ilə bu gün dünya mediasını fəth edən Prezidentimizin belə addımlarına özlərinin daxili dünyasından deyil, həqiqətin aynasından baxmağı tövsiyə edərdim. Ölkə başçısının bu Novruz hədiyyəsi, birmənalı olaraq, hər kəsi yalnız sevindirməli və hər kəs bu hədiyyəni təqdir etməlidir. Ola bilsin, kimlərsə əlindəki bəhanənin əlindən çıxmasından pəjmürdə olur. Yəni yerli-yersiz "siyasi məhbus" deyib, bağırdıqları adamların tam əksəriyyətinin əfv edilməsi, azadlığa buraxılması, onların müxaliflik faktlarını əllərindən almış oldu və içərilərindəki narahatlığı bu formada ifadə edirlər. Lakin zənnimcə, belədə onlar özlərini, məhz özlərini olmayan hörmətlərindən məhrum edirlər. Bizə gəlincə, ölkə başçısına silsilə humanist fərmanların davamı olaraq, əsl Novruz töhfəsi kimi imzaladığı bu tarixi, həm də cəsarətli Fərmana görə minnətdarlığımızı bildiririk. Başqa bir el deyimində olduğu kimi, yaxşılıq et, at dənizə, balıq bilməsə də, XALİQ biləcək. İndiki halda, bu deyimə də kiçik bir düzəliş yerinə düşərdi: Yaxşılıq et, bağışla, qədirbilməzlər bilməsə də, xalq biləcək və bilir də...

# İnsan hüquqlarının növləri

***İqtisadi, Sosial və Mədəni Hüquqlar üzrə Komitə istisnadır; belə ki, komitə, əslində, Paktdan irəli gələn nəzarət funksiyalarının yerinə yetirilməsi məqsədilə İqtisadi və Sosial Şuranın qətnaməsi əsasında yaradılmışdır. Belə orqanlar texniki cəhətdən müstəqil orqanlardır və praktikada Birləşmiş Millətlər Təşkilatı sistemi ilə yaxından əlaqədə olmasına və Birləşmiş Millətlər Təşkilatının İnsan Hüquqları üzrə Ali Komissarlığı və BMT-nin İnsan Hüquqları Mərkəzi tərəfindən dəstəklənsə də, daha çox müqaviləyə üzv olan dövlətlər qarşısında məsuldurlar. İnsan Hüquqları Komitəsi MSHBP-nın standartlarının tətbiqini təşviq edir.***

Komitənin üzvləri üzv dövlətlər haqqında fikirlərini ifadə edir və müqaviləyə Fakültativ Protokolu ratifikasiya etmiş dövlətlərə qarşı olan fərdi şikayətlər üzrə qərarlar qəbul edir. Belə qərarlar hüquqi cəhətdən məcburi deyil. Komitənin iclasları ildə üç dəfə keçirilir. İqtisadi, Sosial və Mədəni Hüquqlar üzrə Komitə İSMHBP-a nəzarət edir və ratifikasiya edən ölkələrin fəaliyyəti barədə ümumi şərhlər verir. Qüvvəyə mindikdən sonra Fakültativ Protokola tərəf olan ölkələrə qarşı şikayətlər almaq hüququ vardır. Qeyd etmək vacibdir ki, digər müqavilə qurumlarından fərqli olaraq, İqtisadi Komitə müqavilənin tərəfi olan dövlətlər qarşısında məsul olan müstəqil qurum deyil və birbaşa İqtisadi və Sosial Şura və nəticə etibarilə, Baş Məclis qarşısında hesabat verir. Bu, İqtisadi Komitənin digər müqavilə qurumları ilə müqayisədə öz fəaliyyətini nisbətən "zəif" vasitələrlə həyata keçirməsi və xüsusi çətinliklərlə üzləşdiyi anlamına gəlir. Şərhçilər, xüsusilə, aşağıdakı çətinlikləri vurğulayırlar: müqavilə prinsiplərinin anlaşılmazlığı, müvafiq hüquqi mətnlərin və qərarların çatışmazlığı, iqtisadi, sosial və mədəni hüquqlarla əlaqədar əksər dövlətlərin fərqli mövqelərinin olması, müvafiq sahə ilə məşğul olan qeyri-hökumət təşkilatlarının nisbətən az olması və uyğun və dəqiq informasiyanın əldə edilməsində çətinliklər. İrqi ayrı-seçkiliyin ləğvi üzrə komitə İrqi ayrı-seçkiliyin bütün formalarının ləğv edilməsi haqqında Konvensiyaya nəzarət edir və dövlətlərin fəaliyyətini mütəmadi nəzərdən keçirir. Dövlətlərə qarşı olan fərdi şikayətlər üzrə qərarlar qəbul etsə də, belə qərarlar məcburi deyil. Konvensiyanın ciddi pozuntularının qarşısını almaq üçün dövlətlərə xəbərdarlıq edir. Qadınlara qarşı ayrı-seçkiliyin ləğvi üzrə Komitə Qadınlara qarşı ayrı-seçkiliyin bütün formalarının ləğv edilməsi haqqında Konvensiyaya nəzarət edir. Komitə dövlətlərin fəaliyyətləri ilə bağlı hesabatlar alır və onlar barədə rəy verir. Həmçinin, 1999-cu il Fakültativ Protokoluna tərəfdar olan dövlətlər əleyhinə şikayətlər üzrə qərar qəbul etmək səlahiyyəti var. İşgəncə Əleyhinə Komitə İşgəncə Əleyhinə BMT Konvensiyasına nəzarət edir. Komitə hər dörd ildən bir dövlətlərin məruzələrini qəbul edir və rəy verir. Onun altkomitəsi Fakültativ Protokola üzv olan dövlətlərə səfər edib təhqiqat apara bilər. Uşaq Hüquqları Komitəsi Uşaq Hüquqları Konvensiyasına nəzarət edir və hər beş ildən bir dövlətlərin məruzələrinə rəy verir. Şikayətləri qəbul etmək səlahiyyəti yoxdur.

Miqrant İşçilər üzrə Komitə 2004-cü ildə yaradılmışdır və Bütün miqrant işçilərin və onların ailə üzvlərinin hüquqlarının müdafiəsi haqqında BMT Konvensiyasının monitorinqini aparır və hər beş ildən bir dövlətlərin məruzələrinə rəy verir. Yalnız on üzv dövlət razılıq verdiyi təqdirdə, xüsusi pozuntularla bağlı şikayətləri qəbul etmək səlahiyyəti vardır. Əlillərin Hüquqları üzrə Komitə Əlillərin Hüquqlan haqqında Konvensiyaya nəzarət etmək məqsədilə 2008-ci ildə yaradılmışdır. Əlillərin hüquqlan haqqında Konvensiyaya dair Fakültativ Protokola tərəfdar olan dövlətlər əleyhinə şikayətləri qəbul etmək səlahiyyətinə malikdir. Məcburi Yoxaçıxmalar üzrə Komitə Bütün şəxslərin məcburi yoxaçıxmalardan müdafiəsi haqqında Beynəlxalq Konvensiyaya nəzarət edir. Bütün üzv dövlətlərin müvafiq hüquqların necə tətbiq olunması barədə Komitəyə məruzə vermək öhdəliyi var. Komitə məruzələri araşdırır və üzv dövlətlərə "yekun müşahidələr" formasında narahatlıq və tövsiyələrini bildirir. Qadınlara Qarşı Ayrı-Seçkiliyin Ləğvi üzrə Komitə əvvəllər bütün yığıncaqlarını Birləşmiş Millətlər Təşkilatının Nyu-Yorkdakı qərargahında keçirsə də, hazırda Cenevrədəki BMT-nin İdarəsində keçirir; digər müqavilə orqanları da Cenevrədə toplanır. İnsan Hüquqları Komitəsi mart sessiyasını adətən Nyu-Yorkda keçirir. İnsan hüquqlarını tənzimləyib təşviq edən bir çox sazişlər və regional təşkilatlar var. Afrika İttifaqı (Aİ) - 55 Afrika dövlətindən ibarət fövqəlmilli ittifaqdır. 2001-ci ildə yaradılmış Aİ-nin hədəfi, əsasən, Afrika daxili münaqişələrə son verib effektiv ümumi bazarın yaradılmasına, Afrikada insan hüquqlarına, demokratiyaya, davamlı iqtisadiyyatın yaradılmasına kömək etməkdir. Afrika ölkələri 1981-ci ildə İnsan və Xalqların Hüquqları haqqında Xartiya qəbul edərək, insan hüquqları üzrə regional təşkilat yaradıblar. Afrika Xartiyasında kontinentin spesifikası və iştirakçı dövlətlərin vəzifələri nəzərə alınmışdır. İnsan və Xalqların Hüquqları haqqında Afrika Xartiyasında özünütəyinetmə, müstəmləkəçilik, xarici hökmranlıqla mübarizə məsələləri, sosial-iqtisadi inkişaf, təbii sərvətlər və ehtiyatlar üzərində suveren hüquqların həyata keçirilməsi ön planda durur. Xartiyada xalqların beynəlxalq sülh və təhlükəsizlik hüququ, əlverişli ətraf mühitdə inkişaf etmək hüququ, müstəmləkəçiliyin qalıqlarının tamamilə aradan qaldırılması və Afrika xalqlarının azad inkişaf hüququ da əsas yer tutur. Xartiya İnsan və Xalqların Hüquqları üzrə Komissiyanın yaradılmasını da nəzərdən keçirmişdir. Bu komissiya hər il öz sessiyasını keçirir. Xartiyanın 62-ci maddəsinə uyğun olaraq iştirakçı dövlətlər hər iki ildən bir Xartiyada nəzərdə tutulmuş hüquq və azadlıqların təmin edilməsi üçün qəbul etdikləri qanunverici və digər tədbirlər haqqında məruzə təqdim etməlidirlər. Komissiyanın funksiyaları haqqında ümumi xüsusiyyətlər ifadə olunub. Xartiyada müzakirə olunan məruzələr üzrə bu orqanın hansı qərar qəbul etməsi, Komissiyanın səlahiyyət normaları haqqında konkret müddəalar yox dərəcəsindədir. Təcrübədə Afrika İnsan Hüquqları Komissiyası yalnız bu və ya digər hüquq və azadlıqların qanunverici təminatı haqqında tövsiyələr verə bilər. İnsan və xalqların hüquqlarının təbliği İnsan və xalqların hüquqlarının qorunması İnsan və Xalqların Hüquqları haqqında Afrika Xartiyasının interpretasiyası... Bu məqsədlərə çatmaq üçün Komissiyaya sənədlər toplamaq, Afrikada insan və xalqların hüquqları ilə bağlı problemlər mövzusunda tədqiqatlar aparmaq, seminarlar, simpozium və konfranslar təşkil etmək, informasiya yaymaq, insan hüquqları və xalqların haqları məsələləri ilə məşğul olan milli və yerli müəssisələri təşkil etmək tapşırılıb. Bundan başqa, Komissiya lazım gələrsə, hökumətlərə öz fikirlərini bildirib, tövsiyələr verə bilər (Komissiyanın Nizamnaməsi, Maddə (45), İnsan və Xalqların Hüquqları üzrə Afrika Məhkəməsinin yaradılması ilə (1998-ci ildə yaradılmış və 2004-cü ilin yanvar ayında qüvvəyə minmiş Xartiyanın protokoluna uyğun olaraq), Komissiyanın qarşısında bütün işlərin məhkəmənin yurisdiksiyasına verilməsi və bunun üçün hazırlanması vəzifəsi qoyulacaq. Afrika İttifaqı Assambleyasının 2004-cü il iyul ayındakı qərarına əsasən yaradılacaq İnsan və Xalqların Hüquqları üzrə Afrika Məhkəməsi, Afrika Məhkəməsi ilə birləşdiriləcək. Afrika İttifaqının Məhkəməsi "ittifaqın ali məhkəmə orqanı" olmaq iddiasındadır (Afrika İttifaqı Məhkəməsinin protokolu, Maddə 2.2). O, hələ yaradılmamasına baxmayaraq, İnsan və Xalqların Hüquqları üzrə Afrika Komissiyasının öhdəliklərini öz üzərinə götürməyi, Afrika İttifaqının ali məhkəməsi kimi fəaliyyət göstərməyi, zəruri olan bütün qanun və müqavilələri təfsir etməyi öz üzərinə götürmək niyyətindədir. İnsan və Xalqların Hüquqları üzrə Afrika Məhkəməsinin yaradılması haqqında Protokol 2004-cü ilin yanvar ayında qüvvəyə minib. Lakin onun məhkəmə ilə birləşməsi yaradılmasını gecikdirdi. Məhkəmənin yaradılması ilə bağlı protokol onun 15 ölkə tərəfindən ratifikasiya olunmasından sonra qüvvəyə minəcək. Bir çox Afrika ölkəsi beynəlxalq ictimaiyyət və qeyri-hökumət təşkilatları tərəfindən insan hüquqlarının pozulması ilə bağlı ittiham olunurlar. Amerika, Asiya və Avropa İnsan Hüquqlarının Təsnifatı İnsan hüquqlarının üç nəsli İnsan hüquqları müxtəlif təsnifat sistemlərinə tabedir. İnsan hüquqlarının ən sadə təsnifatı onların mülki, siyasi, iqtisadi, sosial və mədəni hüquqlara ayrılmasıdır. Universal və regional səviyyədə bağlanan müqavilələr çox zaman bu bölgüyə uyğunlaşdırılır. Geniş yayılmış daha bir təsnifat isə tarixi meyara söykənir. Söhbət 1979-cu ildə Strasburqdakı Beynəlxalq İnsan Hüquqları İnstitutunun üzvü çex-fransız alimi Karel Vasak tərəfindən irəli sürülmüş "insan hüquqlarının üç nəsli" konsepsiyasından gedir. Vasakın bu təsnifatı öz köklərini Avropa hüququndan aldığı kimi, Avropa dəyərlərini əks etdirirdi. Bu konsepsiyaya görə, hazırda mövcud olan bütün əsas insan hüquqları öz inkişaf tarixində üç mərhələ keçmişdir və bu mərhələlər əsasında üç nəsil fərqləndirilir. İnsan Hüquqları Nəzəriyyəsi Qərb mədəniyyətinin bir məhsuludur. Qərb ölkələri üstünlüyü daha çox birinci nəsil hüquqlara verirlər. ABŞ-da indiyə kimi, "due process of law" deyilən məhkəmə təminatı qaçan həyat, azadlıq və mülkiyyət hüquqları ilə bağlı mübahisələrdə tətbiq olunur. Avropa qitəsində sosial hüquqlara daha çox diqqət yetirilir, amma birinci dərəcəli hüquqlar orada yenə əsasdır. Məlumdur ki, sosial hüquq dövləti anlayışı hazırda Avropa qitəsində hakimdir. Lakin bunun səbəbləri arasında, eyni zamanda, II Dünya müharibəsindən sonra Avropada nisbətən güclü olan sosialist hərəkətlər də yer alır. Köhnə sosialist dövlətlər və Asiya ölkələri iqtisadi və sosial hüquqlara daha böyük əhəmiyyət verdikləri halda, birinci nəsil hüquqları isə çox vaxt təmin etməkdən aciz olublar. Məsələn, SSRİ-də pulsuz müalicə, təhsil, istirahət hüquqları təmin edildiyi halda, söz azadlığı kimi əsas hüquqlar qətiyyən tanınmırdı. Bunun əksinə, ABŞ-da isə, iqtisadi və sosial hüquqlar mütləq şəkildə təmin olunmalı hüquqlar hesab edilmir. Həqiqətən də, mülki və siyasi hüquqlar olmadan ikinci nəsil hüquqları təmin etmək mümkün olmadığı kimi, bir insanın mənzili və iş yeri olmadan, aclıq və səfalət içində birinci nəsil hüquqlarını yaşaması çətin görsənir (buna full-belly thesis ("dolu qarın" tezisi) də deyilir). Məhz buna görə, Ümumdünya İnsan Hüquqları Bəyannaməsi 1948-ci ildə hazırlananda bu bəyannaməyə həm birinci, həm də ikinci nəsil hüquqlar daxil edilib. Hər iki nəsil hüquqların Ümumdünya İnsan Hüquqları Bəyannaməsində yer almasının səbəbi ondan irəli gəlirdi ki, bunların ancaq bir yerdə var olduğu bir sistemdə bu hüquqların təmin edilməsinin mümkün olacağına dair qənaət hakimdir. I nəsil Birinci Nəsil İnsan Hüquqlarına mülki və siyasi hüquqlar aiddir. Qərb ölkələrinin məşhur sənədlərində yalnız bu hüquqlar öz əksini tapmışdır. Bu hüquqlar, əsasən, aşağıdakılardır: yaşamaq hüququ; işgəncəyə və digər qəddar, qeyri-insani və ya ləyaqəti alçaldan rəftara və ya cəzaya məruz qalmaq hüququ; köləlikdə və ya asılı vəziyyətdə saxlanılmamaq hüququ; azadlıq və toxunulmazlıq hüququ; sərbəst hərəkət etmək hüququ; fikir, vicdan və din azadlığı; sərbəst toplaşmaq hüququ; birləşmək hüququ; dövlət işlərinin aparılmasında iştirak etmək hüququ; və s. Mülki və Siyasi Hüquqlar Avropa İnsan Hüquqları Konvensiyasında, Ümumdünya İnsan Hüquqları Bəyannaməsinin 3-21-ci maddələrində, habelə, 1966-cı il tarixli Mülki və Siyasi Hüquqlar haqqında Beynəlxalq Paktda öz əksini tapıb. Şəxsi hüquqlar, Şəxsi hüquqlar hər kəsə aiddir, çox vaxt bu hüququ mülki hüquqlar ilə qarışdırsalar belə, bu hüquqlar vətəndaşlıqdan asılı olmayaraq, hər kəsə aiddir. Bu hüquqa vətəndaşlığından, cinsindən, yaşından, irqi, etnik və ya dini mənsubiyyətindən asılı olmayaraq, doğulduğu andan hər kəs sahibdir. İnsan həyatının, ləyaqət və azadlığının qorunması üçün bu hüquq olduqca vacibdir. Şəxsi hüquqlara aşağıdakılar aiddir: yaşamaq hüququ. Yalnız məhkəmə tərəfindən cəza almaq hüququ - məhkəmədən kənar cəzalar qadağandır. Şəxsiyyətin toxunulmazlığı, Hərəkət və yaşayış yeri seçmək azadlığı, Mənzil toxunulmazlığı, Yazışma toxunulmazlığı, Məcburi əməyin qadağası, Mülkiyyətin toxunulmazlığı (Bəzən bu hüquq iqtisadi hüquqlara aid edilir. Fransada Böyük Fransa inqilabından etibarən şəxsin əsas hüquqlarından biri kimi qəbul edilir.) Şəxsin ləyaqət hüququ, Vicdan və din azadlığı Şəxsiyyətin fərdi hüquqlarının tanınması, Sığınacaq hüququ, Vətəndaşlıq hüququ, Ailə qurmaq hüququ Əmlaka sahib olmaq hüququ, Siyasi hüquq və azadlıqlar Siyasi hüquq və azadlıqlar şəxsi, sosial, iqtisadi və digər hüquqlardan fərqlənir. Çünki bu hüquq sahibləri mövcud dövlətin vətəndaşları olub onunla əlaqədə olurlar. Siyasi hüquq və azadlıqlar vətəndaşın subyektiv hüquq və azadlıqlarının mühüm kateqoriyasıdır. Onlar insanın həm fərdi, həm də kollektiv şəkildə dövlətin ictimai-siyasi həyatında və idarə olunmasında iştirak etmək imkanı kimi başa düşülür. Bununla da, dövlətin vətəndaşdan təcrid olunması aradan qaldırılır.

**Vahid Ömərov,**
***fəlsəfə üzrə fəlsəfə doktoru***




*Bu yazı Azərbaycan Respublikası Prezidenti yanında Kütləvi İnformasiya Vasitələrinin İnkişafına Dövlət Dəstəyi Fondunun maliyyə dəstəyi ilə "İnsan hüquq və azadlıqlarının müdafiəsi, vətəndaşların hüquqi, siyasi mədəniyyət səviyyəsinin yüksəldilməsi, sosial və siyasi fəallığının artırılması" istiqaməti çərçivəsində hazırlanıb*

# səs

Son səhifə 20 mart


## Bakcell gənc developerlər üçün məzun gecəsi keçirib

### "AppLab" Akselerasiya Proqramina ərizə qəbulu başlayıb

***Azərbaycanın İlk Mobil Operatoru və Ən Sürətli Mobil İnternet Provayderi Bakcell şirkəti AppLab proqramının növbəti məzunlarını elan edib. 2018-2019-ci illər ərzində "AppLab"da iştirak etmiş layihələrin uğurlarını qeyd etmək üçün təşkil edilmiş tədbirdə "Run2Help", "Buket.az", "Madebyaz" və "Balta" layihələrinin müəllifləri ideyaların hazır və bazarda tələb olunan məhsullara çevrilməsində "AppLab"ın mühüm rolu haqqında danışıblar. Gənc developerlərə Bakcell şirkətindən xüsusi sertifikatlar təqdim olunub.***



"Biz görürük ki, Azərbaycanın gəncləri çox böyük bir potensiala malikdirlər. Mən əminəm ki, bu gənclərin ideyaları tək yerli bazar deyil, hətta beynəlxalq səviyyədə belə rəqabət apara biləcək məhsul və xidmətlərə çevrilə bilər. Bakcell fəxr edir ki, ölkənin ən innovativ məkanlarından biri olan "AppLab" Mərkəzindəki şəraitdən yararlanan komandaların yaratdığı mobil tətbiqetmələr və məhsullar müxtəlif platformalar üzərindən yüklənir və artıq istehlakçılar tərəfindən aktiv şəkildə istifadə olunur. Bu, bizim fəaliyyətimizin effektiv olmasının bariz nümunəsidir və biz "AppLab" iştirakçıları arasında bu qədər uğurlu layihələrin olması ilə qürur duyuruq", deyə "Bakcell"in baş icraçı direktoru Nikolai Beckers bildirib.

Qeyd edək ki, Bakcell ölkədə startapların inkişafına yönəlmiş layihələrinin həyata keçirilməsini dəstəkləyən ilk şirkətlərdən biri olub. "AppLab" proqramının fəaliyyətə başladığı 2014-cü ildən bəri müxtəlif avadanlıq və proqram təminatlarının tərtibi ilə məşğul olan yerli developerlər öz ideyalarını həyata keçirmək üçün "Bakcell"dən dəstək alırlar. "AppLab" layihəsinin iştirakçıları şirkətin "AppLab" Mərkəzində təqdim olunan pulsuz İnternet, masa və təlim otaqları ilə yanaşı üzərində işlədikləri proqram təminatı və cihazların inkişaf etdirilməsi və sınaqlardan keçirilməsi üçün tələb olunan ən son avadanlıqlardan yararlanmaq imkanına malikdirlər. Ötən ilin sonunda İNNOLAND İnkubasiya və Akselerasiya Mərkəzi ilə imzalanmış müqavilə çərçivəsində Bakcell ilə İNNOLAND startaplar üçün inkubasiya proqramını birlikdə həyata keçirirlər. Buna görə də "AppLab" artıq Akselerasiya Mərkəzi kimi fəaliyyət göstərəcək.

Qeyd edək ki, AppLab Akselerasiya Proqramına ərizə qəbulu açıq elan edilib. Daha öncə "AppLab"da inkubasiya prosesini uğurla başa çatdırmış "Run2Help" layihəsi isə artıq "AppLab" Akselerasiya Mərkəzinə qəbul olunub. İnnovasiyalar sahəsində özünü doğrultmuş lider olan Bakcell şirkəti yerli startapların inkişafı, təhsil, elm və texnologiya sahəsində həyata keçirilən layihələri dəstəkləməyə davam edəcək.

## Elan

ADPU-nun biologiya müəllimliyi ixtisası üzrə I kurs tələbəsi Əsgərova Aysel Sənan qızının adına verilmiş tələbə bileti itdiyi üçün etibarsız sayılır.

***

Bakı şəhəri Əmircan qəsəbəsi, Axundov küçəsi, ev 8-də yaşayan Quliyev Balaş Mehdi oğlunun adına verilmiş çıxarış (kupça) itdiyi üçün etibarsız sayılır.

## Azərbaycan idmançıları Xüsusi Yay Olimpiya Oyunlarında 4-ü qızıl olmaqla 17 medal qazanıb



Birləşmiş Ərəb Əmirliklərində keçirilən Xüsusi Yay Olimpiya Oyunları davam edir. AZƏRTAC xəbər verir ki, yarışlarda Azərbaycan idmançıları 4-ü qızıl olan 17 medal qazanıblar. Xüsusi olimpiyaçılarımız atletika üzrə 6 (1 qızıl, 2 gümüş, 3 bürünc), pauerliftinq yarışlarında 5 (1 qızıl, 2 gümüş, 1 bürünc), cüdo üzrə 3 (1 qızıl, 1 gümüş, 1 bürünc), badminton üzrə 1 qızıl, stolüstü tennis yarışında 1 gümüş, üzgüçülük üzrə isə 1 bürünc medal qazanıblar.

Azərbaycan Oyunlarda 54 atletlə təmsil olunur. İdmançılarımız atletika, pauerliftinq, cüdo, stolüstü tennis, badminton, futbol, həndbol, basketbol, voleybol və üzgüçülük idman növlərində mübarizə aparırlar. Xüsusi Yay Olimpiya Oyunlarında 190-dək ölkədən 7500-dən çox atlet qüvvəsini sınayır.

## Səudiyyə Ərəbistanı basketbol üzrə dünya çempionatına ev sahibliyi edəcək



Səudiyyə Ərəbistanı bu ilin oktyabrında basketbol üzrə dünya çempionatına ev sahibliyi edəcək. AZƏRTAC xəbər verir ki, bu barədə müqaviləni Ər-Riyadda Ərəb-Səudiyyə Olimpiya Komitəsinin sədri Əbdül Əziz bin Turki əl-Feysəlin iştirakı ilə Səudiyyə Ərəbistanı Basketbol Federasiyasının sədri Əbdül Rəhman əl-Musida və Beynəlxalq Basketbol Federasiyasının sədrinin birinci müavini Aqnessio Andres imzalayıblar.

Ciddə əyalətində keçiriləcək çempionatın Səudiyyə Ərəbistanının dünya idmanında mövqeyinin güclənməsinə töhfə verəcəyi bildirilir.

Aqnessio Anders çempionata ev sahibliyinə görə Səudiyyə Ərəbistanı Basketbol Federasiyasına minnətdarlığını bildirib, yarışların uğurla təşkil olunacağına əminliyini ifadə edib. Əbdül Rəəhman əl-Musib öz növbəsində Ərəb-Səudiyyə Olimpiya komitəsinin sədri Əbdül Əziz bin Turki əl-Feysələ basketbol üzrə dünya çempionatının ölkədə keçirilməsini dəstəklədiyinə görə təşəkkürünü bildirib. O, bu çempionatın ən vacib idman hadisəsi olduğunu deyib.

## Xorvatiya-Azərbaycan oyununa 13 min bilet satılıb

Futbol üzrə Avropa çempionatının qrup mərhələsi çərçivəsində keçiriləcək Xorvatiya-Azərbaycan oyununa 13 min bilet satılıb. AZƏRTAC xəbər verir ki, oyunun keçiriləcəyi Zaqrebdəki "Maksimir" stadionu 35 min tamaşaçı tutumuna malikdir. Xorvatiya yığmasının baş məşqçisi Zlatko Daliç deyib: "Ümid edirəm ki, oyun günü "Maksimir"də azarkeşlərin dəstəyini hiss edəcəyik. Çünki bizim buna ehtiyacımız var. Çox istərdim ki, hava yağışlı olmasın və stadion azarkeşlərlə dolu olsun".

Qeyd edək ki, Xorvatiya-Azərbaycan oyunu martın 21-də Bakı vaxtı ilə saat 23:45-də start götürəcək.

UEFA EURO2020

## Qadın futbolunda dünya rekordu



İspaniyanın qadın futbol liqasında keçirilən "Atletiko" - "Barselona" oyununda azarkeş rekordu qırılıb. SİA-nın xarici mətbuata istinadən verdiyi məlumata görə, Madriddəki Vanda Metropolitano stadionunda keçirilən və "Barselona"nın 2:0 hesablı qələbə qazandığı görüşü 60739 nəfər tribunadan izləyib. Bu, qadın futbolunda dünya rekordu kimi tarixə düşüb. İndiyə qədərki rekord 99 il əvvəl Liverpuldakı "Goodison Park"da qeydə alınmışdı. 1920-ci ildə "Dick Kerrs Ladies" və "Helen's Ladies" komandaları arasındakı görüşü 53 min azarkeş izləmişdi.

## Polis Bekhemi cəriməlıəyəcək



Devid Bekhem London polisinə sükan arxasında telefonla danışdığını etiraf edib. SİA-nın xarici mətbuata istinadən verdiyi məlumata görə, polisə veteran ulduzun qanunu pozması haqda təsadüfi şahid məlumat verib. Hadisə Londonda, 2018-ci ilin noyabrında baş verib. Mənbə dünən paytaxt polisinə Bekhemin günahını etiraf etməsiylə bağlı məktub daxil olduğunu vurğulayıb. İngiltərə millisinin sabiq üzvünü 200 funt-sterlinq məbləğində cərimə gözləyir. Onun sürücülük reytinqinə isə 6 bal yazılacaq.


*Baş redaktor:*
Bəhruz Quliyev
*Baş redaktorun müavinləri:*
Valeh Məhərrəmli
Fətulla Həsənov

Ünvanımız: Bakı şəhəri, Üzeyir Hacıbəyov küçəsi, 66.
Şəhadətnamə:№ 022492
http://www.ses-news.az
http://www.sesqazeti.az
E-mail: ses@sia.az
Tel:598-33-90 Faks:493-11-62

Redaksiyanın mövqeyi ilə müəllifin mövqeyi üst-üstə düşməyə bilər.

Qəzet "Səs"in kompüter mərkəzində yığılır, səhifələnir.
"Azərbaycan" nəşriyyatında çap olunur
*Qəzetdə AzərTAc, SİA və AZADİNFORM informasiya agentliklərinin məlumatlarından istifadə olunur.*

Qəzet bazar və bazar ertəsindən başqa hər gün nəşr olunur
Tiraj: 5500